23 fevral 2022 №15 (1888) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Bu, münasibətlərimizin inkişafında yeni mərhələdir

### Azərbaycanla Rusiya arasında "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalanıb



Biz ölkələrimiz arasında yaranmış dostluq, mehriban qonşuluq münasibətlərini çox yüksək qiymətləndirir, onları möhkəmləndiririk. "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"nin imzalanması son illərdə bizim necə fəal işlədiyimizi və qarşılıqlı əməkdaşlığın potensialını artırmağımızı çox yaxşı illüstrasiya edir.

Azərbaycan Prezidenti İlham Əliyev bu sözləri fevralın 22-də Moskvada Rusiya Prezidenti Vladimir Putin ilə görüşdə deyib.

Xatırladaq ki, Azərbaycan Prezidenti fevralın 21-də Rusiya Federasiyasına rəsmi səfərə gedib. Fevralın 22-də Kremldə Rusiya və Azərbaycan prezidentlərinin təkbətək görüşü olub.

Görüşün mətbuat üçün açıq hissəsində çıxış edən Prezident Vladimir Putin bildirib ki, Azərbaycanın dövlət başçısının Rusiyaya budəfəki səfəri ikitərəfli münasibətlərdə əlamətdar hadisə – diplomatik əlaqələrimizin yaradılmasının 30 illiyi ərəfəsində keçir. "Bu gün biz "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalayacağıq. Tamamilə aşkardır ki, bu, bizim münasibətlərimizin inkişafında yeni mərhələdir və şübhəsiz, bu, o cümlədən bütövlükdə hələ sona qədər nizamlanmamış, lakin həllində irəliləyiş əldə edilmiş Qarabağ münaqişəsinin tənzimlənməsinə nail olduğumuz sonra mümkün olub", – deyə Putin vurğulayıb.

davamı səh. 2-də

## Moskvada Azərbaycan mədəniyyəti günləri

### Otuzillik diplomatik münasibətlər tarixinə mədəni irs rakursundan baxış

Fevralın 22-də Heydər Əliyev Fondunun dəstəyi ilə Moskvada Azərbaycan günləri başlayıb. Martın 1-dək davam edəcək silsilə mədəniyyət tədbirləri Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyinə həsr olunub.

Silsilə tədbirlər çərçivəsində Moskvadakı Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin "Azərbaycan" pavilyonunda "Azərbaycan xalçaları: yeni baxış" adlı sərgi açılıb.

"Azərxalça" ASC ilə birgə təşkil olunan sərgidə "Qarabağ" qrupuna aid xalçalar nümayiş etdirilir. Onlardan dördü yeni orijinal formatda olan müasir kolleksiyadandır. Sərgilənən eksklüziv xalçalar "Azərxalça"nın yaradıcı kollektivinin Əməkdar rəssam Rəşad Ələkbərovla iş birliyinin məhsuludur.

"Azərxalça"nın İdarə Heyətinin sədri Emin Məmmədov bildirib ki, sərgilənən xalçaların hamısı Qarabağ məktəbinə aiddir: "Biz ənənəvi klassik Qarabağ xalçalarına artıq yeni baxış nümayiş etdirir, müasir, konseptual, XXI əsrin interyerinə uyğun xalçalar təqdim edirik".

Rəşad Ələkbərovun dizaynı üzrə Qarabağ məktəbinə aid "Qasımuşağı" qrupu xalçalarının əsasında hazırlanan xalçalar məhdud – 44 sayda toxunub. Qeyd edək ki, kolleksiyanın bu sayda xalçadan ibarət olması Azərbaycanın Qarabağ Zəfərini simvolizə edir.

Ekspozisiyada "Qarabağ" qrupuna aid məşhur "Əjdahalı" xalçalar da yer alıb. "Bizim əsas məqsədlərimizdən biri də müasir Azərbaycan xalçalarını tanıtmaqdır. Azərbaycanda bütün incəsənət növləri inkişaf edir. Niyə xalçamız da inkişaf etməsin?



İndi müxtəlif hərraclarda qədim Azərbaycan xalçaları satılır, dünyanın ən tanınmış muzeylərində qədim xalçalarımız nümayiş etdirilir. Biz istərdik ki, 50-100 il sonra həm qədim, həm də indi toxunan xalçalarımız əntiq xalçalar kimi sərgilənsin, hərraclara çıxarılsın", – deyə Emin Məmmədov əlavə edib.

"Azərbaycan" pavilyonunun rəhbəri Səadət Qədirova qeyd edib ki, sərgidə Azərbaycan xalçaçılıq ənənələri müasir rakursda təqdim edilir, həm klassik ifadə, həm də müasir dizaynda xalçalar göz oxşayır: "Azərbaycan rəhbərliyi tərəfindən xalçaçılıq sənətinin inkişafına böyük diqqət və qayğı göstərilir. Mənə çox xoşdur ki, bu nəfis xalçalar, incəsənət nümunələri pavilyonumuzda sərgilənir".

Moskvadakı Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin "Azərbaycan" pavilyonunda Heydər Əliyev Fondunun daha bir layihəsi – dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Yeddi gözəl" poeması əsasında "Dildən-dilə" ədəbiyyat layihəsi təqdim olunur.

Layihə çərçivəsində Rusiyanın və Azərbaycanın tanınmış mədəniyyət və incəsənət xadimlərinin ifasında dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Yeddi gözəl" əsərindən parçalar təqdim edilib.

Fevralın 22-də axşam "Gelikon-opera" Musiqili Teatrında "Azərbaycanın musiqi ulduzları Moskva səhnəsində" adlı qala-konsert keçirilib. Əməkdar artist Fuad İbrahimovun dirijorluğu ilə keçirilən konsertdə Ceyla Seyidova (skripka), Dinara Əliyeva (vokal), Elçin Əzizov (vokal), Elvin Qəniyev (skripka), Murad Adıgözəlzadə (fortepiano), Sahib Paşazadə (tar), Şəhriyar İmanov (tar), Yusif Eyvazov (vokal) Azərbaycan və Rusiya bəstəkarlarının əsərlərindən ibarət repertuar təqdim ediblər.

## Yaradıcı sənayelərdə çağırışlar və biznes imkanları

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Mədəniyyət Nazirliyi və Əqli Mülkiyyət Agentliyinin dəstəyi ilə Azərbaycan Yaradıcı Sənayelər Federasiyası və KOBİA yanında İctimai Şura tərəfindən fevralın 23-də "Yaradıcı sənayelərdə çağırışlar və biznes imkanları" mövzusunda ictimai müzakirə keçiriləcək.

İctimai müzakirə post-pandemiya reallıqları, çağırışlar və yeni imkanlar, qazanılmış təcrübə və yeni texnoloji həllər; yaradıcı sənayelərin müasir biznes çağırışları, dövlət-özəl tərəfdaşlığının inkişafı, bilik-bacarıqların artırılması, effektiv sahəvi təşkilatlanma, müvəqqəti vergi güzəştlərinin və sərfəli kredit imkanlarının yaradılması, milli məzmun yaradıcılığı və istehsalın təşviqi kimi məsələləri əhatə edəcək.

## Tarixin daş yaddaşlı mirasını yeni üsullarla tanıtmaq

Xəbər verdiyimiz kimi, Qobustan Milli Tarix-Bədii Qoruğunun təsis etdiyi "Qobustan dünyası" elmi-metodiki, populyar jurnalın ilk sayı işıq üzü görüb. Həmçinin nəşrin saytı (gobustandunyasi.az) istifadəyə verilib və qoruğun sifarişi ilə "Qavaldaş" cizgi filmi çəkilib.

Fevralın 18-də Beynəlxalq Muğam Mərkəzində bununla bağlı təqdimat mərasimi keçirildi.

Əvvəlcə Qobustan qoruğunun əməkdaşı Vəfa Hüseynova təqdim olunan layihələr haqqında məlumat verdi. Diqqətə çatdırdı ki, xalqımızın qədim tarixini, yaşayış tərzini, mədəniyyətini, incəsənətini, özündə əks etdirən Qobustan abidələri mədəniyyətin müxtəlif sahələrinin silinməz nişanələrini gələcək nə-




sillərə daşıyır. Təkcə ölkəmizin deyil, bütün dünyanın mədəni irsi, mədəni sərvəti olan Qobustan abidələrinin, ümumilikdə Azərbaycan mədəniyyətinin və incəsənətinin yerli və beynəlxalq səviyyədə layiqincə təbliğ olunması Qobustan Milli Tarix-Bədii Qoruğunun əsas fəaliyyət istiqamətlərindən biridir.

Bildirildi ki, qoruğun təsis etdiyi "Qobustan dünyası" jurnalı, onun saytı və "Qavaldaş" cizgi filmi təbliğat sahəsində görülmüş işlərin bir qismidir. "Qobustan dünyası" dərgisi qoruğun ilk dövri mətbu nəşridir.

davamı səh. 3-də



## Tretyakov Qalereyası kolleksiyasından Tahir Salahovun əsərləri

Fevralın 22-də Moskvadakı Yeni Tretyakov Qalereyasında dünya şöhrətli Azərbaycan rəssamı Tahir Salahovun sərgisi açılıb. Heydər Əliyev Fondunun dəstəyi ilə Moskvada Azərbaycan Günləri çərçivəsində təşkil edilən sərgidə rəssamın Tretyakov Qalereyasının kolleksiyasından əsərləri nümayiş olunur.

Ziyarətçilərə Tahir Salahovun natürmort, peyzaj, portret janrlarında əsərləri təqdim olunur. Qalereyadakı Tahir Salahov fondunun əməkdaşı Elmira Jdanova deyib ki, bu sərgi ilə görkəmli rəssamın xatirəsini bir daha yad edirik: "Ekspozisiyada müxtəlif dövrlərə aid edən əsərlər sərgilənir. Eyni zamanda rəssamın qalereyaya 2019-cu ildə daxil olmuş sonuncu əsərlərindən biri – "Səhər ovu" əsəri ziyarətçilərə təqdim olunur. Burada Tahir Salahovun doğma şəhəri Bakıya həsr olunmuş rəsmləri də var. Tahir Salahov Azərbaycana və Rusiyaya sevgini özündə birləşdirən təkrarsız incəsənət xadimidir. Onun yaradıcılığında iki xalqın ənənələri öz əksini tapır...".

## Tbilisidə Azərbaycan rəssamlarının Xocalı sərgisi

Fevralın 20-də Tbilisidə Azərbaycan rəssamlarının Xocalı soyqırımına həsr etdikləri əsərlərdən ibarət sərgi açılıb.

M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində ölkəmizin Gürcüstandakı səfirliyinin dəstəyi ilə təşkil edilən "Xocalıya ədalət!" adlı sərginin açılışında qonşu ölkədə səfərdə olan Azərbaycanın təhsil naziri Emin Əmrullayev də iştirak edib.

Nazir, ölkəmizin səfiri Faiq Quliyev, Türkiyə səfirinin müavini Onur Sevim, Gürcüstan Təhsil Nazirliyi, Elmlər Akademiyası, Rəssamlar İttifaqı rəsmiləri, digər qonaqlar sərgi ilə tanış olublar. Tədbirdə Xocalı faciəsi zamanı yaxınlarını itirmiş ailələrin üzvləri iştirak ediblər.

Sərginin təşkilatçılarından olan Azərbaycan Rəssamlar İttifaqının üzvü Ülkər Əbülfət əsərlər barədə məlumat verib. Bildirilib ki, sərgidə 60-a yaxın tablo yer alıb.

Tədbirdə çıxış edən səfir Faiq Quliyev Xocalı faciəsinin səbəbləri, acı nəticələri barədə ətraflı məlumat verib. Faciə haqqında həqiqətlərin dünyaya çatdırılmasından söz açan diplomat bu istiqamətdə Heydər Əliyev




Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən başlayan "Xocalıya ədalət!" kampaniyasını xüsusi qeyd edib.

davamı səh. 3-də

## "Maestro Niyazi" filmi bərpa olunub

Musiqi Mədəniyyəti Dövlət Muzeyində fevralın 18-də Azərbaycan Dövlət Film Fondu ilə birgə yenidən bərpa olunmuş "Maestro Niyazi" (1975) sənədli filminin təqdimatı keçirildi.

Təqdimat görkəmli dirijor və bəstəkar, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Niyazinin (1912-1984) 110 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində gerçəkləşdi.

Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova muzeyin Niyazinin yaradıcılığının təbliği istiqamətində gördüyü işlərdən danışdı. O, "Maestro Niyazi" sənədli filminin bərpasının da bu istiqamətdə atılan təqdirəlayiq addımlardan olduğunu dedi.

Qeyd olundu ki, 1975-ci ildə "Azərbaycanfilm" Kinostudiyasında çəkilən film böyük sənətkarın həyat yolu və çoxcəhətli yaradıcılığına, həmçinin ictimai fəaliyyətinə həsr olunub.



Ekran işinin ssenari müəllifləri Svetlana Mirzəyeva və Rauf Nağıyev, rejissoru Rauf Nağıyevdir.

davamı səh. 3-də

"Əbədi imzalar"da Qara Qarayevin not toplusu



səh. 5

"Müharibə cinayətləri mədəni irsə qarşı: Qarabağ münaqişəsinin tarixi kontekstində"

səh. 3



"Mənim günahım" bu dəfə görkəmli aktyorun xatirəsinə ithaf olunub

səh. 5

№15 (1888)
23 fevral 2022
www.medeniyyet.az

əvvəli səh. 1-də

Rusiya Prezidenti əlavə edib ki, bu məsələdə hələ qarşıya çıxan problemlərə baxmayaraq, hər halda məmnun ola bilərik ki, hazırda olduğumuz səviyyəyə çatmışıq: "Lakin istənilən halda həm orada yaşayan bütün insanların təhlükəsizliyinin təmin edilməsi baxımından, həm də ticari-iqtisadi əlaqələrin inkişafı, nəqliyyat kommunikasiyalarının açılması baxımından artıq müəyyən razılaşmalar var. Bilirəm ki, hələ mübahisələr var, üzərində işləniləsi məsələlər var. Lakin biz öz tərəfimizdən bu prosesin dinc vasitələrlə getməsi, sülh yolu ilə inkişaf etməsi və əlbəttə, bu prosesə cəlb edilmiş bütün tərəflərin razı qalmasına nail olmaq üçün əlimizdən gələni edəcəyik".

Putin qeyd edib ki, nəqliyyat kommunikasiyaları məsələlərinin həll edilməsində təkcə Azərbaycan və Ermənistan maraqlı deyil, həm Rusiya Federasiyası, həm də iki ölkənin qonşuları məsələdə maraqlıdır.

İki ölkə arasında ticari-iqtisadi əlaqələrin inkişafını, pandemiyaya baxmayaraq, keçən il əmtəə dövriyyəsinin 16 faizdən çox artdığını, eləcə də regional əlaqələrin səmərəli inkişaf etdiyini deyən Rusiya rəhbəri qarşılıqlı fəaliyyəti dəstəklədiyinə görə Azərbaycan Prezidentinə təşəkkür edib.

Putin həmçinin Rusiya və Azərbaycan üçün də çox vacib olan humanitar məsələlərin həllini, ilk növbədə, rus dilinin inkişafını dəstəklədiyinə görə dövlət başçısına təşəkkürünü ifadə edib: "Mən bilirəm ki, Azərbaycanın 300 məktəbində rus dili fəal öyrənilir, bu dil populyardır. Əlbəttə, biz bunu gələcəkdə də hər vasitə ilə dəstəkləyəcəyik".

Rusiya Prezidenti son günlər Ukrayna ilə münasibətlərdə yaranmış vəziyyətdən bəhs edərək Azərbaycanın dövlət başçısını bu barədə də məlumatlandıracağını deyib. Bu xüsusda bir qədər öncə Qazaxıstan Prezidenti ilə də danışdığını diqqətə çatdıran Putin vurğulayıb ki, Rusiyanın keçmiş imperiya sərhədləri daxilində imperiyanı bərpa etməyə hazırlaşması mövzusunda spekulyasiyalar əsla həqiqətə uyğun deyil:

# Bu, münasibətlərimizin inkişafında yeni mərhələdir

## Azərbaycanla Rusiya arasında "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalanıb



"Sovet İttifaqı dağılandan sonra Rusiya bütün yeni geosiyasi reallıqları etiraf etdi və Sizin də bildiyiniz kimi, postsovet məkanında yaranmış bütün ölkələrlə, müstəqil dövlətlərlə bizim qarşılıqlı əlaqələrimizin möhkəmləndirilməsi üzərində fəal iş aparır. Hətta məsələn, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi kimi kəskin, çox kəskin vəziyyətlərdə də biz həmişə çox səliqəli hərəkət etmişik, bu prosesə cəlb edilmiş bütün dövlətlərin maraqlarını nəzərə almışıq və həmişə qarşılıqlı məqbul həllərə nail olmağa çalışmışıq".

"Bildiyiniz kimi, biz beynəlxalq terrorizmin xarici təcavüzü ilə əlaqədar Qazaxıstan rəhbərliyinin xahişi ilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində Qazaxıstanı dəstəklədik. Bu problem aradan qalxan kimi Qazaxıstan rəhbərliyinin xahişi ilə biz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının kontingenti çərçivəsində özümüzün bütün silahlı qüvvələrimizi oradan çıxartdıq və bütün istiqamətlər üzrə Qazaxıstan ilə əməkdaşlığı davam etdiririk... Biz bundan sonra da bütün qonşularımızla münasibətdə bu cür hərəkət etmək niyyətindəyik. Təkrar edirəm, Ukrayna ilə bağlı vəziyyət başqadır. Bu, onunla bağlıdır ki, təəssüflər olsun, üçüncü ölkələr tərəfindən bu ölkənin ərazisindən Rusiya Federasiyasına qarşı təhdidlər yaratmaq üçün istifadə edilir...", – deyə Putin əlavə edib.

Azərbaycan Prezidenti nitqində ikitərəfli münasibətlərin çox dinamik şəkildə inkişaf etdiyini vurğulayıb: "Biz daim əlaqə saxlayırıq, zəngləşirik. Əlbəttə, şəxsi görüşlərimiz həmişə xüsusi əhəmiyyət kəsb edir, xüsusən ona görə ki, Sizin qeyd etdiyiniz kimi, ölkələrimiz arasında ən mühüm sənədin imzalanması ərəfəsində. Rəmzi haldır ki, bu görüş, Sizin qeyd etdiyiniz kimi, ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi ərəfəsində keçir".

Prezident bildirib ki, Azərbaycan və Rusiya arasında "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" həm ikitərəfli münasibətlərin gələcəyi, həmçinin regional təhlükəsizlik üçün birmənalı olaraq çox müsbət əhəmiyyət kəsb edəcək. Dövlət başçısı qeyd edib ki, bəyannamənin 40-dan çox bəndi var və o, qarşılıqlı fəaliyyətin ən mühüm sahələrini əhatə edir.

"Bütövlükdə ölkələrimiz arasında siyasi münasibətlər son illərdə həmişə çox müsbət inkişaf edir. Hazırda bu münasibətlər ən yüksək səviyyəyə çatır. Ticari-iqtisadi əlaqələrdə yaxşı dinamika olması barədə Sizin fikrinizə şərik olduğumu bildirmək istərdim. Bizim əmtəə dövriyyəsinin həcmi artıq 3 milyard dolları aşıb və Sizin qeyd etdiyiniz kimi, 16 faiz artıb. Bu ildə də artım perspektivi var, yanvar ayının göstəriciləri buna dəlalət edir. Biz çoxsaylı konkret layihələri həyata keçiririk", – deyə İlham Əliyev əlavə edib.

Humanitar sahədə əməkdaşlığın önəmini vurğulayan Azərbaycan Prezidenti bildirib ki, bu həm Rusiya üçün, həm də Azərbaycan üçün vacibdir: "Məktəblər məsələsinə gəldikdə, bir qədər dəqiqləşdirmək istərdim. Azərbaycanda təhsilin rus dilində olduğu 340-a yaxın məktəb var, bu məktəblərdə 140 mindən çox uşaq təhsil alır. Azərbaycanda 15 mindən çox vətəndaş ali məktəblərdə rus dili bölmələrində oxuyur. Mənim fikrimcə, bu, bizim münasibətlərimizin və gələcək əlaqələrimizin çox mühüm əsasıdır, ona görə ki, rus dili keçmiş Sovet İttifaqı ölkələrini həmişə birləşdirirdi və əlbəttə, rus dilini bilmədən gələcək nəsillərin əlaqələrini nizamlamaq çox çətin olar. Buna görə də, dediyim kimi, bu, həyatımızda çox mühüm amildir".

Azərbaycan Prezidenti daha sonra deyib: "Əlbəttə, Sizin qeyd etdiyiniz kimi, bu gün bizim regionda vəziyyət, münaqişədən sonrakı vəziyyət barədə danışacağıq. Rusiya Federasiyası Azərbaycan ilə Ermənistan arasında müharibənin dayandırılmasında və münaqişənin nizamlanmasının qaynar mərhələdən siyasi diplomatik sahəyə keçirilməsində çox mühüm rol oynayıb. 2020-ci ilin noyabrında Sizin fəal iştirakınızla imzalanmış üçtərəfli Bəyanat bu çoxillik münaqişəni nizamlamağımıza imkan verdi. Bu gün yeni vəziyyət yaranıb, regionda bugünkü geosiyasi reallıqlar dünya birliyi tərəfindən qəbul edilib. Rusiya Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması, nəqliyyat kommunikasiyalarının açılması, normal qonşuluq münasibətlərinin qurulması üçün imkanlar yaradılması işində çox mühüm, mən deyərdim əsas rol oynayır. Biz bu rolu çox yüksək qiymətləndiririk. Ümidvarıq ki, erməni tərəfi də bizim kimi, öz tərəfindən 2020-ci ilin noyabrında imzalanmış Bəyanatın bütün bəndlərini yerinə yetirəcək.

Beləliklə, gündəliyimiz çox genişdir, bu səfər xüsusi səfərdir. Mən Prezident kimi 48-ci dəfədir ki, Rusiyadayam. Lakin bu, xüsusi haldır. Bu gün biz tarixi xarakterli çox mühüm sənəd imzalayacağıq...".

***

Fevralın 22-də Moskvada "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalanıb.

Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin imzalayıblar.

Bəyannaməyə əsasən, Rusiya Federasiyası və Azərbaycan Respublikası regionda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşdırılması üçün əsas kimi çıxış etmiş Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyasının Prezidentinin 9/10 noyabr 2020-ci il tarixli, 11 yanvar 2021-ci il tarixli və 26 noyabr 2021-ci il tarixli bəyanatlarının müddəalarının həyata keçirilməsi üzrə səylərə bundan sonra da hər cür dəstək verəcəklər.

Sənəddə vurğulanır ki, Rusiya Federasiyası və Azərbaycan Respublikası Tərəflərdən birinin fikrincə iki dövlətin strateji tərəfdaşlığına və müttəfiqlik münasibətlərinə xələl gətirən hər hansı hərəkətlərdən çəkinirlər.

Sonra prezidentlər mətbuat üçün bəyanatlarla çıxış ediblər.

# Diplomatik əlaqələrin 30 illiyi münasibətilə

## "Əməkdaşlıq bundan sonra da inkişaf edəcək və genişlənəcək"

Azərbaycanın müstəqil dövlət kimi beynəlxalq arenaya çıxmasının, BMT-yə, digər beynəlxalq təşkilatlara üzvlüyünün, eləcə də bir çox ölkələrlə diplomatik münasibətlər qurmasının 30-cu ildönümü tamam olur.

Fevral ayında Azərbaycanla diplomatik münasibətlərin 30 illiyini qeyd edən ölkələr sırasında Avstriya və Polşa da var.

Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Bellen diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü münasibətilə Azərbaycan Prezidentinə təbrik ünvanlayıb.

"Avstriya ötən 30 il ərzində ölkələrimiz arasındakı münasibətlərin inkişafını çox qənaətbəxş hesab edir və bu əlaqələr qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslanır.

Ümidvaram ki, biz birlikdə ölkələrimiz arasındakı dostluq əlaqələrini siyasi, iqtisadi və mədəni müstəvidə daha da dərinləşdirə və inkişaf etdirə biləcəyik", – deyə məktubda vurğulanır.

"Azərbaycan-Polşa münasibətləri dərin tarixi köklərə və xoş ənənələrə malikdir. Tarixi əlaqələrimiz müasir dövrdə əməkdaşlığımız üçün möhkəm zəmin yaratmışdır. Xalqlarımız arasında dostluq ənənələrinə söykənən və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş münasibətlərimizin mövcud vəziyyəti məmnunluq doğurur.

Hesab edirəm ki, Azərbaycan ilə Polşa arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı perspektivlər var. İqtisadiyyat, nəqliyyat və digər sahələrdəki mövcud potensialdan tam şəkildə istifadə etməklə əməkdaşlığımızı daha da möhkəmləndirə və genişləndirə bilərik" – bu sözlər isə diplomatik münasibətlərin 30 illiyi ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin Polşa Prezidenti Andjey Dudaya məktubunda yer alıb.

Xatırladaq ki, Polşa Prezidenti Andjey Duda fevralın 16-da Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı zamanı Azərbaycan ilə Polşa arasında müxtəlif sahələrdə ikitərəfli əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılıb.

Azərbaycanla Böyük Britaniya arasında diplomatik münasibətlərin 30 illiyi isə martın 11-də tamam olacaq. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Boris Conson bu münasibətlə Prezident İlham Əliyevə məktub ünvanlayıb.

"Son 30 il ərzində Böyük Britaniya və Azərbaycan Respublikası mühüm strateji tərəfdaşlığın inkişaf etdirilməsi üçün birgə çalışıblar. Mən çox şadam ki, Böyük Britaniya sərmayələrinin Azərbaycanın enerji sektoruna yatırıldığı ilk vaxtlardan etibarən bu əlaqələr genişlənib və çiçəklənib. İnvestisiya və ticarət artmaqda davam edir, təhsil və mədəni əlaqələrimiz son dərəcə sıxdır, biz iqlim dəyişikliyi və təmiz enerji, regional təhlükəsizlik, qadın və qızlara dəstək daxil olmaqla mühüm məsələlər üzrə getdikcə daha böyük dəyər qazanan əməkdaşlığa nail olmuşuq. Böyük Britaniya Azərbaycan Respublikasının sarsılmaz və dəstək verən tərəfdaşıdır və bundan sonra da olacaqdır...", – deyə məktubda bildirilir.

Azərbaycan Prezidentinin Baş nazir Boris Consona məktubunda da ölkəmizin bu dostluq və əməkdaşlığa xüsusi əhəmiyyət verdiyi vurğulanır: "Sevindirici haldır ki, son otuz ildə ölkələrimiz arasında qarşılıqlı inam və dəstəyə əsaslanan siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimiz dinamik şəkildə inkişaf etmişdir. Bu dövr ərzində iqtisadi sahədə əldə etdiyimiz nailiyyətlər məmnunluq doğurur. Birləşmiş Krallıq bu günədək Azərbaycan iqtisadiyyatına böyük həcmdə sərmayələr yatırmışdır...".

Məktubda Birləşmiş Krallığın şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsinə verdiyi töhfə, ərazilərin yenidənqurulması və bərpası işlərində yaxından iştirakı da təqdirlə qeyd edilir: "İnanıram ki, Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı əməkdaşlıq bundan sonra da birgə səylərimizlə inkişaf edəcək və genişlənəcəkdir...".

# Azərbaycanın multikultural dəyərləri İrəvanda diqqətə çatdırılıb

## "Bu, erməni etnik azlığının Azərbaycan cəmiyyətinə reinteqrasiyası üçün ən yaxşı zəmanətdir"

Fevralın 22-də İrəvanda keçirilən Avronest Parlament Assambleyasının komitə iclasında Azərbaycan da təmsil olunub. İclasda Milli Məclisin deputatları Tahir Mirkişili və Soltan Məmmədov iştirak ediblər.

Azərbaycan multikultural, çoxkonfessiyalı bir ölkədir. Azərbaycanın malik olduğu multikultural dəyərlər erməni etnik azlığının Azərbaycanın bərabərhüquqlu vətəndaşı kimi reinteqrasiyası üçün ən yaxşı zəmanətdir. Azərbaycan Ermənistanla bütün əlaqələrin bərpasının tərəfdarıdır. Bu, regionumuza sülh və təhlükəsizlik, eyni zamanda iqtisadi faydalar gətirəcək, onu Şimal və Cənub, Şərq və Qərb arasında körpüyə çevirəcək.

Bu sözləri komitə iclasında çıxış edən Soltan Məmmədov deyib. Deputat bildirib ki, bu gün Azərbaycanın dünyaya təklif etdiyi regional layihələr təhlükəsizliyə və regionun inkişafına xidmət edir.

Soltan Məmmədov Ermənistan heyətinin işğaldan azad edilmiş ərazilərdəki mədəni irs



abidələri ilə bağlı ittihamlarına cavabında qeyd edib ki, Azərbaycan bu sahədə beynəlxalq ictimaiyyətə 30 il çağırış edib. Azərbaycan istənilən mədəni və dini abidənin mənsubiyyətindən asılı olmayaraq bərpasına, qorunmasına və istifadə edilməsinə sadiqdir: "Biz 30 ildən çoxdur ki, UNESCO-nu bu ərazilərə gəlib dəyərləndirmə və monitorinq aparmağa, Azərbaycan mədəni irsinin vəziyyətini qiymətləndirməyə çağırırdıq. Biz indi beynəlxalq ictimaiyyətin müstəqil dəyərləndirmə aparmasını, reallığı beynəlxalq ictimaiyyətə çatdırmasını gözləyirik...".

Deputat Ermənistan tərəfini Azərbaycanla bağlı düzgün ifadələr seçməyə və təhqiredici ifadələrdən çəkinməyə çağırıb.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili isə deyib ki, region ölkələri ortaq maraqlarını müəyyənləşdirməlidir: "Biz istəyirik ki, evimizdə sülh olsun. Cənubi Qafqazda inkişaf olsun. Biz region ölkələri olaraq ortaq maraqlarımızı müəyyənləşdirməliyik. Bunun üçün də biz ilk öncə Qafqaz ölkələri olaraq öz aramızda təhlükəsizliyə nail olmalıyıq. Bu gün Azərbaycan buna hazırdır, ölkənin gündəliyində olan sülhdür, inkişafdır...".

Tahir Mirkişili Azərbaycanın Avropa İttifaqı ilə çox yaxşı münasibətlərinin olduğunu da diqqətə çatdırıb: "Şərq Tərəfdaşlığı ölkələri arasında yalnız Azərbaycanın enerji resursları var və biz bunu öz qonşularımızla paylaşmağa, onların da bu imkanlardan istifadə etməsinə icazə verməyə hazırıq".

Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramının parlament formatı olan Avronest Parlament Assambleyası 2011-ci il mayın 3-də Brüsseldə təsis edilib. Assambleyada Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna və Moldova təmsil olunur.

# "Xocalı bu olub" Varşavada nümayiş olunacaq

Azərbaycan Dövlət Pantomim Teatrının "Xocalı bu olub" tamaşası Varşavada nümayiş olunacaq. Bu məqsədlə teatrın yaradıcı heyəti Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi və Polşadakı səfirliyimizin dəvəti ilə Varşavaya yola düşüb. Kollektiv Xocalı soyqırımının 30-cu ildönümü münasibətilə fevralın 24-də Xalq artisti Bəxtiyar Xanızadənin "Xocalı bu olub" tamaşasını nümayiş etdirəcək.



Dövlət sifarişi ilə hazırlanan tamaşanın müəllifi və quruluşçu rejissoru Bəxtiyar Xanızadə, quruluşçu rəssamı Sənubər Səmədova, musiqi tərtibatçısı Əməkdar artist Elman Rəfiyevdir. Rolları Əməkdar artistlər Elman Rəfiyev, Bəhruz Əhmədli, Səbinə Hacıyeva, eləcə də Elnur Rzayev, Cavad Nuriyev, Nurlan Rüstəmov, Nuridə Musabəyli, Elxan Şahəliyev, Solmaz Bədəlova, Səbirə Həsənova ifa edirlər.

Dövlət Pantomim Teatrının direktoru Elman Rəfiyev bildirib ki, "Xocalı bu olub" tamaşası ölkəmizdən xaricdə ilk dəfə 2019-cu il fevralın 25-də Bolqarıstanın paytaxtı Sofiyada nümayiş olunub. Mədəniyyət Nazirliyi və ölkəmizin Bolqarıstandakı səfirliyinin təşəbbüsü ilə reallaşan nümayiş maraqla qarşılanmışdı. Direktor həmçinin qeyd edib ki, teatrın repertuarında Xocalıya həsr olunan daha bir səhnə əsəri "Unutmayaq"dır. Rejissoru Əməkdar artist Bəhruz Əhmədli olan tamaşa ilk dəfə Xocalı faciəsinin 20-ci ildönümündə, 2012-ci ildə Berlində, daha sonra Parisdə oynanılaraq böyük maraq doğurmuşdu: "Əsrlər keçsə də, xalqımız bu faciəni unutmayacaq. Nə xoş bizə ki, torpaqlarımız işğaldan azad olundu. Biz bu dəfə səfərə qalib xalqın nümayəndəsi kimi gedirik".

**Lalə**

# "Dilimizi sevək, qoruyaq"

F.Köçərli adına Respublika Uşaq Kitabxanası Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının 1-ci sinif şagirdlərinin iştirakı ilə 21 fevral – Beynəlxalq Ana Dili Gününə həsr olunmuş "Dilimizi sevək, qoruyaq" adlı tədbir keçirib.



Şagirdlər əvvəlcə kitabxana ilə tanış olublar. Uşaqlar ana dilimizə həsr olunmuş şeirlər söyləyib, mahnılar ifa ediblər.

Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova ana dilinin insan həyatında əvəzsiz yeri olduğunu vurğulayıb. Qeyd edib ki, məhz ana dilinin hər bir xalq üçün müstəsna önəmi nəzərə alınaraq UNESCO tərəfindən 1999-cu ildə belə bir gün təsis edilib.

Əməkdar müəllim Yaqut Əzimzadə böyük maarifpərvər Firidun bəy Köçərlinin ana dili haqqında fikirlərini diqqətə çatdırıb: "Ana südü bədənimizin mayası olduğu kimi, ana dilimiz də ruhumuzun qidasıdır. Hər bir insan öz ana dilini yaxşı bilməli və onu qorumalıdır. Ana dili millətin özünəməxsusluğunu qorumaqla yanaşı, tərcümə vasitəsilə başqa xalqların mədəni irsi ilə tanış olmağa, onlarla ünsiyyət qurmağa imkan yaradır...".

Kitabxananın foyesində təşkil olunmuş "Mənim ana dilim" adlı kitab sərgisinə baxış keçirilib. Tədbir iştirakçılarına kitabxananın saytında yerləşdirilmiş uşaq mahnıları, cizgi filmləri barədə də məlumat verilib. Sonda şagirdlərə kitabxananın nəşri olan "Göy qurşağı" jurnalı hədiyyə edilib.

# Tarixin daş yaddaşlı mirasını yeni üsullarla tanıtmaq

## "Qobustan dünyası" jurnalının, saytının və "Qavaldaş" cizgi filminin təqdimatı




*əvvəli səh. 1-də*

Azərbaycanın qədim və zəngin mədəni irsinin təbliği, mədəniyyət və incəsənət sahələri üzrə mütəxəssislərin və yaradıcı şəxslərin bilik və təcrübəsinin ictimaiyyətlə paylaşılması məqsədilə təsis olunan jurnal ildə iki dəfə oxucuların görüşünə gələcək. Jurnalın birinci buraxılışı Qobustan abidələrinin ilk tədqiqatçısı, arxeoloq alim İshaq Cəfərzadənin (1895-1982) xatirəsinə ithaf olunub.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev bildirdi ki, mədəniyyətimizi qorumaqla, əslində, kimliyimizi qoruyuruq. Mədəniyyət inkişaf etdikcə xalqın xarakteri və keyfiyyətləri də inkişaf edir. Dünya mədəni irsinin abidəsi olan Qobustan rəsmləri tariximizin və incəsənətimizin qədimliyini əks etdirməklə yanaşı, insanın yaradıcı düşüncəsinin formalaşmasının təzahürüdür. Bu qayaüstü rəsmlər onu göstərir ki, insanlar ilk dəfə gördüyünü əks etdirməyə çalışıb. İnsanlar bunu yaddaşını qorumaq üçün edib. Bu tarix musiqi, rəqs və mədəniyyətin digər sahələri ilə yanaşı, bu gün həm də rəqəmsal vasitələrlə gələcək nəsillərə ötürülür. Qobustan yalnız yaşayış məkanı deyil, eləcə də ayinlərin keçirildiyi bir yer olub. O, qədim və zəngin bir mədəniyyəti əks etdirir.

Qobustan Milli Tarix-Bədii Qoruğunun direktoru Vüqar İsayev çıxışında bu məkanda ilk arxeoloji tədqiqatlardan söz açdı. Bildirdi ki, qoruğun ilk tədqiqatçısı, arxeoloq və etnoqraf, tarix elmləri namizədi İshaq Cəfərzadə 1939-1950-ci illərdə Abşeron, Səbail, Qobustan və s. arxeoloji ekspedisiyaların təşkilatçısı və rəhbəri olub. O, vəfat etdikdən sonra bu işi alim Cəfərqulu Rüstəmov və həyat yoldaşı – tarix üzrə fəlsəfə doktoru, AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş elmi işçisi Fürüzə Muradova davam etdirib. 1966-cı ildə Qobustan qoruğu Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə "dövlət tarix qoruğu" statusunu alıb.




2007-ci ildə Qobustan qoruğu Birinci vitse-prezident Mehriban Əliyevanın böyük dəstəyi ilə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Bundan sonra, Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, qoruq "milli" statusu alıb. Qobustan Milli Tarix-Bədii Qoruğunun 2011-ci ildə inşa edilən yeni inzibati binası – muzey kompleksi qoruğun zəngin fondu sayəsində 2013-cü ildə Avropanın ən yaxşı 10 muzeyindən biri seçilib. Qoruq 2019-cu ildə İCESCO-nun İslam İrsi Siyahısına daxil edilib.

Təqdim olunan layihələr haqqında danışan direktor diqqətə çatdırdı ki, "Qobustan dünyası" jurnalına mədəniyyət naziri Anar Kərimov ön söz yazıb. Jurnalda Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə inteqrasiyasından bəhs edən müxtəlif rubrikalarda yazılar yer alıb. "Mədəniyyətlər qovşağı", tarix və mədəniyyət abidələrimizdən bəhs edən "Miras", ölkəmizin 7 müxtəlif profilli muzeyinin hər birindən bir eksponatın daxil olduğu "Yeddi gözəl", xalqımızın multikultural və tolerant ənənələrinə həsr olunmuş "Multikultural və tolerant Azərbaycan", tanınmış mədəniyyət və incəsənət xadimlərinə həsr olunmuş "Estafet", eləcə də "Mədəniyyət xeyriyyəçiləri", "Ziyalı sözü" və s. rubrikalarda maraqlı yazılar təqdim olunur.

Vüqar İsayev qeyd etdi ki, jurnalın növbəti sayından etibarən Azərbaycan dili ilə yanaşı, ingilis və rus dillərində də nəşr olunması nəzərdə tutulur. Jurnalın saytı (gobustandunyasi.az) da yaradılıb, həmçinin yığcam formalı mobil versiyası hazırlanıb.

"Qavaldaş" cizgi filmi haqqında məlumat verən qoruğun rəhbəri vurğuladı ki, film Qobustan abidələrinin təbliğinə xidmət edir. Cizgi filminin süjet xəttini müasir dövrdə babalarının Qobustana gətirdiyi iki uşağın bu abidələrlə tanışlığı zamanı keçmiş aləmə düşməsi, buradakı qayaüstü təsvirlərdə yer alan qəhrəmanlar vasitəsilə qədim dövrlərə səyahət edib ulu əcdadlarımızın həyat tərzi ilə tanış olmaları təşkil edir.

Çıxışlardan sonra tədbir iştirakçıları "Qavaldaş" cizgi filmini izlədilər.

Filmin nümayişindən sonra "İçərişəhər" Muzey Mərkəzinin direktoru Əminə Məlikova, AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Fürüzə Muradova çıxış edərək yeni layihə münasibətilə təbriklərini çatdırdılar. Qobustan qoruğunun dünyanın heç bir qayaüstü abidəsi ilə müqayisə olunmadığı vurğulandı. Qeyd olundu ki, bu qəbildən bəzi abidələrdə yalnız qayaüstü təsvirlər öyrənilib. Bu, birtərəfli tədqiqatdır. Çünki qayaüstü təsvirlərin dövrünü qazıntı materialları olmadan dəqiq göstərmək mümkün deyil. Qobustanın bir çox dünya abidələrindən üstünlüyü ondadır ki, qayaüstü təsvirlər arxeoloji qazıntılarla bərabər öyrənilir.

Təqdimat mərasiminin sonunda qonaqlara "Qobustan dünyası" jurnalı və "Qavaldaş" cizgi filminin diskləri hədiyyə olundu.

**Lalə**

# Görkəmli musiqişünasın 90 illiyi qeyd olunub





Fevralın 21-də Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) görkəmli musiqişünas alim, Əməkdar incəsənət xadimi, professor Elmira Abbasovanın (1932-2009) 90 illiyinə həsr olunmuş elmi konfrans keçirilib.

Bəstəkarlar İttifaqının sədri, AMEA-nın müxbir üzvü, Xalq artisti Firəngiz Əlizadə qonaqları salamlayaraq Elmira Abbasovanın Azərbaycan musiqi mədəniyyətindəki rolundan, verdiyi töhfələrdən, gözəl oratorluq qabiliyyətindən, ictimai və pedaqoji fəaliyyətindən söz açıb.

ABİ-nin katibi, Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova Elmira Abbasovanın çoxşaxəli yaradıcılığından danışıb, onunla birgə fəaliyyətlərindən bəhs edib. Elmira xanımın professional pedaqoq kimi yetişdirdiyi çoxsaylı tələbələrindən danışan Z.Qafarova onun hər zaman öz işinə ciddi məsuliyyətlə yanaşdığını vurğulayıb.

Əməkdar incəsənət xadimi, professor Gülnaz Abdullazadə E.Abbasovanı üzeyirşünas alim kimi təqdim edib, onunla bağlı xatirələrini bölüşüb. Elmira xanımın çətin və gərgin 90-cı illərdə təşkil etdiyi konsert və konfransların əhəmiyyəti vurğulanıb.

Bildirilib ki, 1977-1991-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) rektoru olan E.Abbasova eyni zamanda müxtəlif nəsillərdən olan görkəmli bəstəkarların və ifaçıların yaradıcılığını araşdırıb. Onun "Cövdət Hacıyev", "Rəşid Behbudov", "Soltan Hacıbəyov", "Səid Rüstəmov", "Qurban Pirimov", "Bəhram Mansurov" və s. kitabçaları, elmi məqalələri Bakıda və keçmiş SSRİ respublikalarında çap olunub.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ülviyyə İmanova isə E.Abbasovanın pedaqoji fəaliyyətindən söz açıb.

Çıxışlardan sonra konsert proqramı təqdim olunub. Ü.Hacıbəylinin "Arşın mal alan" operettasından Gülçöhrənin ariyası və Q.Qarayevin A.Puşkinin sözlərinə yazdığı "Mən sizi sevirdim" romansı Xalq artisti Gülnaz İsmayılovanın ifasında (müşayiət Ülviyyə Hacıbəyova - piano) səslənib. Q.Qarayevin violin və fortepiano üçün sonatasının I hissəsini beynəlxalq müsabiqələr laureatları Ümidə Abbasova (violin) və Səidə Tağızadə (piano) ifa ediblər. Daha sonra Ülviyyə Hacıbəyova Elmira xanımın oğlu, istedadlı bəstəkar Elnar Məmmədovun fortepiano üçün variasiyalarını və Q.Qarayevin "Eskiz" əsərini təqdim edib.

Sonda musiqişünasın qızı, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti Kamina Məmmədova konfransın təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirib.

# Tbilisidə Azərbaycan rəssamlarının Xocalı sərgisi

*əvvəli səh. 1-də*

Təhsil naziri Emin Əmrullayev çıxışında deyib ki, Xocalı soyqırımı yalnız Azərbaycan və azərbaycanlıların deyil, bütün bəşəriyyətin, hər bir insanın faciəsidir. Dünya bu faciə ilə bağlı ədalət səsini ucaltmalı, soyqırımına qiymət verilməlidir ki, bu cür faciələr bir daha təkrarlanmasın. Nazir bildirib ki, Azərbaycan Vətən müharibəsində ərazi bütövlüyünü bərpa edib. Lakin Xocalıda, müharibə dövründə qətlə yetirilən bütün günahsız qurbanlar unudulmur. Biz Xocalını unutmayacağıq və unutdurmayacağıq.

Sonra Türkiyə səfirinin müavini Onur Sevim, Gürcüstan Rəssamlar İttifaqının sədri Quram Tertsvadze, professor Nikolaz Cavaxişvili, Azərbaycan Rəssamlar İttifaqının üzvü Ülkər Əbülfət, Xocalı faciəsində yaxınlarını itirmiş ailənin üzvlərindən Gülnar Çıldırlı, Zərifə Bayramova və başqaları çıxış edərək fikirlərini bölüşüblər. Bildirilib ki, Xocalı faciəsi təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə insanlığa qarşı törədilmiş amansız cinayətdir.

Nazir Emin Əmrullayev və səfir Faiq Quliyev Xocalı soyqırımında yaxınlarını itirmiş və hazırda Marneulidə yaşayan Haqnet Çıldırlı, Zərifə Bayramova və hər iki ailənin üzvləri ilə görüşüb, onların qayğıları ilə maraqlanıb.

***



Emin Əmrullayev səfər əsnasında M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi ilə də tanış olub. Muzeyin direktoru, Azərbaycanın Əməkdar mədəniyyət işçisi Leyla Əliyeva M.F.Axundzadənin həyat və yaradıcılığı, muzeyin fəaliyyəti, burada saxlanılan eksponatlar barədə nazirə ətraflı məlumat verib. Bildirilib ki, muzey Azərbaycan mədəniyyətinin təbliğinə öz töhfəsini verir.

Nazir muzeyin otaqlarını gəzib, burada fəaliyyət göstərən musiqi, xalçaçılıq və ingilis dili kurslarının müəllim və şagirdləri ilə görüşüb, kollektivə uğurlar arzulayıb.

Nazir muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

# Müharibə cinayətləri mədəni irsə qarşı

## Qarabağ münaqişəsinin tarixi kontekstində əcnəbi tələbələr üçün mühazirə

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) "XI Beynəlxalq multikulturalizm qış məktəbi" çərçivəsində yerli və xarici tələbələr üçün mühazirələr keçirilir. Fevralın 21-də Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli "Müharibə cinayətləri mədəni irsə qarşı: Qarabağ münaqişəsinin tarixi konteksində" mövzusunda mühazirə oxuyub.



BBMM-in icraçı direktoru Rəvan Həsənov bildirib ki, budəfəki qış məktəbində 17 ölkədən (Türkiyə, Rusiya, İran, İtaliya, Almaniya, Koreya, Hindistan, Yaponiya, Rumıniya, Peru, ABŞ, Braziliya, Ukrayna, Bolqarıstan, Pakistan, Gürcüstan, Azərbaycan) 20-dən çox tələbə və tədqiqatçı iştirak edir.

Qeyd edək ki, layihə iştirakçılarının Ağdam və Şuşa şəhərlərinə səfərləri də təşkil edilib. Onlar Ağdamda Şahbulaq qalası, İmarət saray kompleksi, Cümə məscidi, Şuşada Vaqif məqbərəsi, Bülbülün Ev-Muzeyi, Yuxarı və Aşağı Gövhər ağa məscidləri, Qazançı kilsəsi, Şuşa qalası, Cıdır düzündə olub, erməni vandalizminin nəticələrini öz gözləri ilə görüblər.

Mühazirəni təqdim edən Azad Cəfərli bildirib ki, işğaldan azad olunmuş ərazilərə mədəniyyətin qayıdışı ən mühüm istiqamətlərdən biridir. Bu ərazilərə həyatın yenidən qayıdışı, mədəni həyatın yenidən bərqərar olunması insanların yaşaması üçün çox vacib bir elementdir. Mühazirədə mədəni irsə baxış, dövlətin öz resurslarını səfərbər etməklə xalqın öz yurduna qayıdışının təşkil edilməsi və digər məsələlərə toxunulub.

Xidmət rəisi tələbələrə Qarabağda olan tarixi tikililər və mədəni irslə bağlı məlumat verib. Qeyd edib ki, azad olunmuş torpaqlarda mina təhlükəsinə görə insanlarımız sərbəst hərəkət edə bilmirlər. Azad Cəfərli bildirib ki, erməni işğalçıları otuz il ərzində mədəni irsimizə böyük ziyan vurub, bir çox tarixi abidələrimizi özününküləşdirmək məqsədilə üzərilərində dəyişikliklər ediblər. Həmin abidələrə baxış və müvafiq analiz zamanı məlum olub ki, özününküləşdirmə məqsədli işlər bütün işğal dövrü davam edib. İşğalçılar bu illər ərzində bizi Qarabağdakı irsimizdən məhrum etməyə çalışıblar. Qeyd edilib ki, Qarabağ həqiqətlərini dünyaya çatdırmaq məqsədilə azad edilmiş ərazilərdə Zəfər muzeyləri yaradılacaq.

Xidmət rəisi tələbələrin suallarını cavablandırıb.

# Təsviri sənətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilir

Mədəniyyət Nazirliyi tərəfindən təsviri incəsənətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilir. Bu xüsusda rəssamlarla görüşlər keçirilir, onların yaradıcılıq qayğıları, fikir və təklifləri dinlənilir.



Nazirliyin Muzey, qalereya və sərgilər şöbəsinin müdiri Nərgiz Abdullayeva və şöbənin Sərgi və qalereyalar sektorunun müdiri Aqşin Mirfeyzullazadə fevralın 18-də Xalq rəssamı Cəlil Hüseynovun, rəssamlar Sübhan Məmmədov və Anar Yolçuyevin emalatxanalarında olublar.

Qeyd edək ki, bu il aprelin 8-də Müasir İncəsənət Muzeyində Xalq rəssamı Cəlil Hüseynovun 65 illiyinə həsr olunmuş "Ağ kölgə" adlı sərgi təşkil ediləcək. Görüş zamanı sərgi ilə bağlı fikir mübadiləsi də aparılıb.

Rəssamlar Sübhan Məmmədov və Anar Yolçuyevin emalatxanalarında görüşlər zamanı hər iki müəllifin gələcəkdə fərdi sərgilərinin təşkili ilə bağlı məsələlər də müzakirə edilib.

# "Maestro Niyazi" filmi bərpa olunub

*əvvəli səh. 1-də*



Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev çıxış edərək bildirdi ki, filmdə unikal kadrlar var. Bu onunla səciyyələnir ki, film Niyazinin sağlığında çəkilib və burada əhəmiyyətli təsvirlər yer alıb: "Həmin unikal səhnələrdən biri Niyazinin Yunus Əmrənin şeirini səsləndirdiyi məqamdır. Film texniki baxımdan yaxşı deyildi. Ona görə də qərara gəldik ki, filmi bərpa edək...".

Cəmil Quliyev filmin elektron nüsxəsini muzeyə hədiyyə etdi.

Çıxışlardan sonra maestro Niyazinin əsərlərindən ibarət musiqi proqramı təqdim olundu. Əməkdar artist Nərgiz Kərimova, Vüsal Aydəmirov, Bakı Musiqi Akademiyasının IV kurs tələbələri Aydan Rüstəmzadə və Günel Rzayevanın ifaları alqışlarla qarşılandı.

Muzeyin arxiv materialları əsasında hazırlanmış slayd-şou nümayiş olunduqdan sonra tədbir iştirakçıları bərpa edilmiş "Maestro Niyazi" filmini izlədilər.

**Savalan Fərəcov**

## Bölgələrdə "Şuşa İli" tədbirləri

Sumqayıt Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyindəki Şuşa rayon Turşsu kənd Uşaq musiqi məktəbində "Şuşa İli"nə həsr olunan konsert keçirilib. Abşeron rayonu Qobu qəsəbə Uşaq incəsənət məktəbi "Təbəssüm" rəqs qrupunun ifasında "Xarıbülbül" rəqsi, məktəbin xanəndə sinfi şagirdlərinin ifasında "Xudayar" təsnifi, "Sarı bülbül" xalq mahnısı və digər musiqi nömrələri təqdim olunub.



Ağcabədi RMİ Ağdam rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Qaradağlı kənd Mədəniyyət evində "Şuşa Qarabağın döyünən ürəyi, Şuşa Qarabağın zümrüd tacıdır" adlı tədbir keçirilib. Kənd tam orta məktəbinin müəllim və şagirdləri Şuşaya həsr olunmuş şeirlər söyləyiblər.

Lənkəran RMİ Astara rayon Mərkəzi Kitabxanasında Şuşa şəhərinə virtual səyahət təşkil olunub. Virtual səyahət zamanı kitabxananın Uşaq şöbəsinin müdiri Gülüstan Dadaşova Şuşanın tarix-mədəniyyət abidələri haqqında iştirakçılara məlumat verib.



Biləsuvar RMİ Salyan rayon Mərkəzi Kitabxanasında keçirilən "Şuşanın azad olunması" adlı tədbirdə məktəblilərə Şuşa döyüşlərində qəhrəmanlıq göstərmiş igidlərimiz haqqında məlumat verilib.

İsmayıllı RMİ Ağsu rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "Mədəni irsli Şuşa" mövzusunda tədbir keçirilib. Çıxış edənlər "Şuşa İli" çərçivəsində həyata keçiriləcək tədbirlərin mədəniyyət paytaxtımızın irsinin təbliğinə töhfə olacağını qeyd ediblər.

Şəki RMİ Şəki şəhər Uşaq incəsənət məktəbinin Xalq çalğı alətləri şöbəsi şagirdlərinin solo konserti keçirilib. Konsertdə IV sinif şagirdi Yaqub Mustafayev və V sinif şagirdi Vasif Hüseynəlili Azərbaycan və xarici bəstəkarların əsərlərini ifa ediblər.

## İclas, ekskursiya, sərgi, konsert...



Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı istedadlı musiqiçi və heykəltəraş Zülfiyyə Kağızmanlıoğlunun emalatxanası ilə tanış olub.

Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzində "Uşaqlar bizim gələcəyimizdir: gəlin, gələcəyimizi qoruyaq" mövzusunda tədbir keçirilib. Masallı Tarix-Diyarşünaslıq Muzeyi və Masallı Dövlət Rəsm Qalereyasında yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə ekskursiyalar təşkil edilib.



Şəmkir RMİ-nin rəisi Azər Rəcəbovun iştirakı ilə Ə.Cavad adına Mədəniyyət Mərkəzində mədəniyyət evləri və klubların fəaliyyətinə həsr olunmuş iclas keçirilib. İdarə rəisi müəssisələrdə işlərin daha səmərəli təşkili ilə bağlı tapşırıqlar verib.

Gəncə RMİ və Gəncə Dövlət Filarmoniyasının təşkilatçılığı ilə Gəncə Dövlət Kamera Orkestrinin konserti keçirilib.

İsmayıllı RMİ Qəbələ Dövlət Rəsm Qalereyasında "Qaradağlı faciəsi" başlığı altında uşaq, yeniyetmə və gənclərin rəsmlərindən ibarət sərgi təşkil olunub.

**Hazırladı: N.Məmmədli**

## Lənkəran teatrı "Vəfalı Səriyyə" ilə Lerikə gedib

Lənkəran Dövlət Dram Teatrının truppası fevralın 18-də Lerikdə qastrol səfərində olub. Yaradıcı heyət rayon Mədəniyyət Mərkəzinin səhnəsində Cəfər Cabbarlının "Vəfalı Səriyyə və yaxud göz yaşı içində gülüş" tamaşası ilə sənətsevərlər qarşısında çıxış edib.



Tamaşadan öncə teatrın direktoru Tofiq Heydərov səhnəyə çıxaraq lerikli tamaşaçılarla Lənkəran sənətçilərinin hər görüşünün qarşılıqlı xoş duyğular oyatdığını xüsusi qeyd edib. Bildirib ki, bugünkü görüş bir də onunla əlamətdardır ki, qarşıdan 10 mart – Milli Teatr Günü gəlir: "Mədəniyyət Nazirliyinin tapşırığı ilə biz bu əlamətdar hadisə münasibətilə tədbirlər planı müəyyənləşdirmişik. Sizinlə yaradıcı görüşümüz də bu qəbildəndir...".

Xalq artisti, Prezident təqaüdçüsü Qabil Quliyev lerikli tamaşaçılara teatr sənətinə göstərdikləri diqqətə görə minnətdarlığını çatdıraraq onları bundan sonra da hər görüşdə maraqlı səhnə əsərləri ilə sevindirəcəklərini deyib.

Sonra tamaşa nümayiş olunub. Lerikli tamaşaçıların böyük maraqla izlədikləri səhnə əsərinə Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov quruluş verib. Rolları Aynur Əhmədova (Səriyyə), Səyyad Əliyev (Rüstəm), Xalq artisti Qabil Quliyev (Həmzə), Əməkdar artist Sucəddin Mirzəyev (Səfər), Qızılgül Quliyeva (Çimnaz), Əbülfəz Axundov (Axund), Tərlan Abdullayev (Məhərrəm), Emin Fərzullayev (Qurban), Miraslan Ağayev (Molla Möhsün) və Təranə Fərəcova (Hüsniyyə) ifa ediblər.

# "Xocalı soyqırımı qan yaddaşımızdır"

Ermənistan silahlı birləşmələrinin 1992-ci il fevralın 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində dinc əhaliyə qarşı həyata keçirdiyi soyqırımının 30 ili tamam olur. İnsanlıq əleyhinə cinayət kimi dəyərləndirilən bu qanlı hadisənin ildönümü münasibətilə bölgələrdə anım tədbirləri keçirilir.



İsmayıllı RMİ İsmayıllı rayon Heydər Əliyev Mərkəzi, İsmayıllı Rayon Gənclər və İdman İdarəsi, Gənclərin İnkişaf və Karyera Mərkəzi İsmayıllı nümayəndəliyinin birgə təşkilatçılığı ilə yeniyetmələr və gənclər arasında rəsm müsabiqəsi keçirilib. Ayişə Həmzə I, Malik Əsgərov II, Kamil Mürsəlov isə III yerə layiq görülüb.



Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyi və Masallı Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə "Əsrin faciəsi" adlı tədbir keçirilib. Tədbirdə məktəblilər Xocalı soyqırımı mövzusunda açılmış "Dəhşətli gecə" adlı rəsm sərgisi ilə tanış olub, şeirlər söyləyiblər. Rayon Heydər Əliyev Mərkəzində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar gənc rəssamların əl işlərindən ibarət sərgi təşkil edilib. N.Gəncəvi adına Mədəniyyət Mərkəzində isə "Dolu" bədii filminin nümayişi təşkil edilib.

Yardımlı rayon Heydər Əliyev Mərkəzində keçirilən "Humanizmə qəsd" adlı tədbirdə xalqımızın tarixinə qanla yazılmış faciənin bütün bəşəriyyətə qarşı törədilmiş cinayət olduğu vurğulanıb. Yardımlı Tarix-Diyarşünaslıq Muzeyində "Xocalı qan yaddaşımızdır" adlı tədbir keçirilib. Rayon Mərkəzi Kitabxanasında keçirilən tədbirdə isə faciəni əks etdirən sərgi və fotostend nümayiş etdirilib.

Ağstafa RMİ Qazax rayon Mədəniyyət Mərkəzində "Xocalı – bir millətin kədəri" adlı film nümayiş olunub.



Bərdə RMİ Bərdə rayon MKS-nin kənd kitabxana filiallarında Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar müxtəlif tədbirlər təşkil olunub.

Lənkəran RMİ Astara rayon Heydər Əliyev Mərkəzində "Xocalı soyqırımı qan yaddaşımızdır" mövzusunda tarix dərsi keçirilib. Dərsdə mərkəzin əməkdaşları, Artupa kənd tam orta məktəbinin müəllim və şagirdləri iştirak ediblər.

# "Ana dilimizi sevək və qoruyaq"

Fevralın 21-i dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd edilir. Əlamətdar günlə bağlı bölgələrdəki mədəniyyət müəssisələrində müxtəlif tədbirlər keçirilib.




Gəncə RMİ Gəncə şəhər MKS-nin 11 saylı kitabxana filialı və 18 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə "Milli varlığın ifadəsi" adlı ədəbi-bədii gecə keçirilib. Şagirdlərin ifasında musiqi parçaları, "Sinif otağı", "Anamın kitabı" səhnəcikləri təqdim edilib, şeirlər səsləndirilib.

Şəki RMİ Qax rayon MKS-nin C.Cabbarlı adına Mərkəzi Kitabxanasında "Ana dilimizi sevək və qoruyaq" mövzusunda konfrans, Zaqatala rayon Heydər Əliyev Mərkəzində isə rayon MKS-lə birgə "Mənim qürurum – Ana dilim" adlı tədbir təşkil edilib.

Ağstafa RMİ Ağstafa rayon Mədəniyyət Mərkəzində təşkil olunan "Ana dili xalqımızın qürur mənbəyidir" mövzusunda tədbirdə çıxış edənlər ana dilimizin milli varlığımızın əsas əlamətlərindən olduğunu söyləyiblər.

İsmayıllı RMİ İsmayıllı rayon MKS-nin Basqal qəsəbə kitabxana filialında Beynəlxalq Ana Dili Gününə həsr olunmuş sərgi təşkil edilib.



Ağdaş RMİ Ağdaş rayon Mərkəzi Kitabxanasının oxu zalında "Dilin sehri, sözün sehri" adlı tədbir keçirilib. Tədbirdə Ağdaş rayon B.Nəbiyev adına 3 saylı beynəlmiləl məktəbinin 4-cü sinif şagirdlərinin ifasında dilimizin gözəlliyini, zənginliyini əks etdirən şeirlər səsləndirilib.




Sabirabad RMİ Saatlı rayon Mədəniyyət Mərkəzinin 1 saylı şəhər klubunda keçirilən tədbirdə dərnək üzvlərinin ifasında mövzu ilə bağlı şeir və mahnılar səslənib.

Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzində "Ana dilimizin inkişafında Heydər Əliyevin rolu" adlı tədbir keçirilib. Masallı şəhər 3 saylı tam orta məktəbin şagirdləri Bəxtiyar Vahabzadənin "Ana dili", Tofiq Bayramın "Öz ana dilini bilməyənlərə" şeirlərini söyləyiblər. Masallı rayon Mərkəzi Kitabxanası, Yardımlı rayon Heydər Əliyev Mərkəzi, Cəlilabad rayon Qarazəncir, Seyidbazar və Dələli kənd kitabxana filiallarında da əlamətdar günlə bağlı tədbirlər təşkil edilib.

Xaçmaz RMİ Quba rayon MKS və Bərdə RMİ Bərdə rayon MKS-nin kənd kitabxana filiallarında da əlamətdar günlə bağlı tədbirlər keçirilib.

# Ölüm sevinməsin qoy...

## Şəhid Nicat Xəlillinin xatirə bulağı açılıb





Xalqımız öz qəhrəmanlarını unutmur, qəlbində, yaddaşında yaşadır. Vətənin igid övladlarını gələcək nəsillərin də xatırlaması üçün onlara bədii əsərlər ithaf edilir, xatirələrinə abidə kompleksləri yaradılır. Ömrünü Vətənə bağışlayanlar cismən yoxluqlarına baxmayaraq, ruhən yaşayır, əbədiyyət fatehlərinə dönürlər.

Zaqatala gəncləri də torpaqlarımızın azadlığı uğrunda mübarizədə həmişə ön sırada dayanıblar. Zaqatala rayonundan 196 nəfər Birinci Qarabağ, 33 nəfər İkinci Qarabağ savaşlarında şəhidlik zirvəsinə yüksəlib.

2020-ci ilin 44 günlük müharibəsində könüllü cəbhəyə yollanaraq canını Vətən uğrunda fəda edənlərdən biri də rayonun Muğanlı kəndində doğulub böyümüş Xəlilli Nicat Əli oğludur. Bu günlərdə şəhidimizin doğma yurdunda onun xatirəsinə bulaq kompleksi açılıb.

Mərasimdə ilahiyyatçı Elşən Musayev şəhidin ömür və döyüş yolu barədə danışaraq, şəhadətin fəlsəfəsi, İslam dinində şəhidlik məqamının önəmi barədə söz açıb.

Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə Vətən müharibəsindən bəhs edərək, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti, rəhbər-xalq birliyi, insanların aşıb-daşan vətənpərvərlik duyğuları və torpaqlarımızı azad görmək əzminin cəbhədə qazanılan qələbələrin rəhni olduğunu söyləyib: "Tarixi Zəfərdə şəhid balamız Nicatın da payı var. Ruhu şad olsun, onu belə mərd, cəsur, doğma məmləkətə sevgi ilə böyüdüb tərbiyə edən valideynlərinə təşəkkür edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bu gün onların ruhu şaddır. Çünki uğrunda canlarını fəda etdikləri Vətənin ərazi bütövlüyü bərpa olunub, torpaqlarımız azaddır...".

Kənd ziyalılarından Firəngiz Əhmədova, Muğanlı orta məktəbində şəhidin müəllimi olmuş Nəsib Yusifov və başqaları çıxış edərək, Nicat kimi minlərlə gəncin öz qəhrəmanlıqları ilə adlarını tariximizə əbədi həkk etdiklərini vurğulayıblar.

Məktəblilər şəhadət zirvəsinə yüksələnlərin ölməzliyini vəsf edən şeirlər söyləyiblər. Sonda şəhidin ruhuna dualar oxunub.

Nicat Xəlilli 9 dekabr 1994-cü ildə doğulub. Vətən müharibəsində Kəlbəcər, Ağdam, Ağdərə, Goranboy rayonları istiqamətində döyüşlərdə şücaət göstərib. 2020-ci ilin 9 oktyabrında Goranboyun Gülüstan kəndi yaxınlığında şəhidlik məqamına yüksəlib. Ölkə Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad edilməsinə görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Allah rəhmət eləsin.

**Qurban Cəbrayıl**

# Sumqayıtda doğan "Günəşim"

Uşaqların mənəvi zənginlik və zövq baxımından formalaşmasında, sözsüz ki, teatrın da özünəməxsus yeri var. Doğrudur, indi multimedia oyunları, vizual əyləncəli tətbiqlər, animasiya onların zövq və təfəkküründə öz izini qoyur. Bu baxımdan teatr, o cümlədən kukla teatrlarının fəaliyyəti xüsusi əhəmiyyətə malikdir.

Məlum olduğu kimi, ölkə üzrə dövlət statusu olan beş kukla teatrı var. Eyni zamanda bir sıra dövlət teatrları, profildən kənar olsa da, plan-proqramlarına uşaq, arabir kukla tamaşaları da daxil edirlər. Bu məqam həm də uşaq teatrına, kukla sənətinə kütləvi maraq və tələbatın göstəricisi sayıla bilər.

Uşaq teatr kollektivlərinin sırasına Sumqayıtda fəaliyyətə başlayan "Günəşim" kukla teatrı da qoşulub.

Müstəqil uşaq teatrı kimi 2019-cu ildə yarandıqlarını və müvafiq qeydiyyatdan (Ədliyyə Nazirliyi) keçdiklərini bildirən layihənin rəhbəri və teatrın təsisçisi Ayişə Səfərli öz fəaliyyətləri ilə həm uşaqlara, həm də mənəvi dünyasında kuklalara yer saxlayan böyüklərə xitab etdiklərini deyir: "Böyüməkdə olan nəslin milli teatr sənətinə sevgi ruhunda yetişməsi, həvəskar aktyorların formalaşması və ən əsası,



kukla teatrı sənətinə uşaqların marağının daha da təşviq edilməsi məqsədilə bu kollektivi yaratdıq. Nağıllar vasitəsilə uşaqlar fantaziyanı gerçəyə çevirərək təxəyyülünü inkişaf etdirir. Biz də Sumqayıtda kukla teatrının olmadığını nəzərə alaraq, "Günəşim" teatrını yaratmaq qərarına gəldik. Ötən qısa müddətdə müəyyən repertuarımız formalaşıb. "Tıq-tıq xanım", "Qırmızıpapaq", "Qoğal", "Cırtdan" kimi nağıl-tamaşalarımız var...".

Həmsöhbətim qeyd edir ki, teatr təkcə Sumqayıtda deyil, Xızı rayonunda da səyyar tamaşalarla uşaqları sevindirir: "Düzü, bu işə başlayanda müəyyən qayğıların da ola biləcəyini nəzərə almışdım. Amma çox sevinirəm ki, bizim teatr sevgimiz qarşılıqlı oldu və teatrsevərlər bizi tək buraxmadılar. Teatrların fəaliyyətinə icazənin verildiyi (1 oktyabr 2021-ci il – red.) bu bir neçə ayda mindən çox bilet satmışıq. Uşaqların asudə vaxtının səmərəli təşkili həm də sosial məsuliyyətdir və bu yolda bizimlə olan hər kəsə təşəkkür edirəm".

Layihə rəhbəri tamaşaları dəvətli mütəxəssislərlə birgə hazırladıqlarını deyir. Tamaşaların quruluş müəllifi Sumqayıt Dövlət Dram Teatrının rejissoru Fuad Kazımov, rəssamı Elvin Əbdülhəsənovdur. Aktyor truppasına gəlincə, kuklaları Sabir Məmmədov, Güllü Aslanova, Ramilə Sadıqova, Yusif Dadaşov hərəkətə gətirirlər. Musiqi tərtibatı ilə Emil Murad və İradə Aslanova məşğul olurlar.

Sumqayıt Gənclər evində fəaliyyət göstərən "Günəşim" teatrının yaradıcılıq planları böyükdür. Hazırda "Balıqçı pişik" (ssenari müəllifi Vladimir Suteyev) cizgi filmi əsasında kukla tamaşası səhnələşdirilir. Tamaşa Azərbaycan və rus dillərində hazırlanır.

**Həmidə**

# Xorun keçdiyi dərs...

## Xalq artisti Elnarə Kərimova: "Pandemiya şərtləri ilə kollektivimizin Bakıya gəlməsi bir möcüzə oldu"



Mədəniyyət Nazirliyi və YARAT Müasir İncəsənət Məkanının birgə təşkilatçılığı ilə ötən il başlanan "Mədəni yenilənmə" layihəsi bu il də davam edir. Xəbər verdiyimiz kimi, layihənin növbəti qonağı TRT-nin Ankara Radiosu xorunun bədii rəhbəri və dirijoru, Azərbaycanın Xalq artisti Elnarə Kərimovadır. Fevralın 15-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında sənətkarın səhnə fəaliyyətinin 30 illik yubileyi münasibətilə konsert proqramı təqdim edildi. Fevralın 17-də isə YARAT Müasir İncəsənət Məkanında Xalq artistinin ustad dərsi təşkil olundu...

### Səs və emosiyaların açılan sirri

Saat 12:00-ı göstərir. YARAT-ın binasındayıq. Elnarə xanım və rəhbərlik etdiyi xorun üzvləri məkandadır. Sənətkar ilk növbədə ətrafa göz gəzdirir. Ustad dərsinin daha uyğun formatda keçirilməsi, xorun rahat yerləşməsi və iştirakçıların da eyni zamanda rahat izləməsi üçün əvvəlcədən qurulmuş zalın tərtibatında bəzi dəyişikliklər edir. Bu həm də onun məsuliyyətindən xəbər verir.

Beləliklə, ustad dərsi başlanır. Bu görüşü bəlkə də dərs yox, elə sözün əsl mənasında, ustad sənətinin təqdimatı adlandırmaq düzgün olardı. Heç bir yorucu an yaşatmadan, maraqlı ifa, mühazirə və eyni zamanda açıqlamalarla müşayiət olunan bu təqdimatı hər kəs böyük maraqla dinləyir və izləyirdi. Amma bu qədər maraqlı dərsin dinləyiciləri yetərincə deyildi ki, bunu da qeyd etmədən keçmək istəmirik.

Sevgi, musiqi, xor və peşəkarlığın bir araya gəldiyi dərsdə ilk olaraq C.Rossininin "Sevilya bərbəri" operasından uvertüradan kiçik hissələr təqdim edildi. Bəs bu məqamlarda iştirakçılar nələr öyrəndi? İlk növbədə hərəkətlərin sərbəstliyi, aydınlığı, xorun idarə olunmasında mimikanın rolu, ifadəli icra və bədii obrazın yaranması. Özəllik həm də onda idi ki, Elnarə xanım bütün bunları sözlə demirdi. Xorun üzvləri ifaları və hər ifaya hazırlıqları zamanı bunu nümayiş etdirirdilər.

Dirijor ifaçıların yadına səsin xarakterini salır və bu yadasalmalar kollektivlə boğaz və burun, notların eniş-yoxuşu ilə çox pozitiv ruhda razılaşdırılır. Hər bir solist üçün daha rahat və təbii vəziyyət yaranır. Bütün bu vəziyyətlərin əsasında isə, məncə, ritm dayanırdı.



Bariton, tenor, soprano səslər bir-birini əvəzlədikcə biz xorun ifasında rəngarəng bir mənzərəyə şahidlik edirdik: türk xalq musiqiləri, Azərbaycan xalq mahnıları, klassik əsərlər. Həm sürətli, həm də asta templərin son həddini dəqiq hiss etmək və anlamaq, tonallığı necə yüksəltmək və necə sonlandırmaq – bütün bunlar musiqinin emosional təsirinin sirrini iştirakçılara açırdı.

### "Əlimizdən gələni edirik ki, kollektiv xoş əhvalda olsun..."

Ustad dərsindən sonra Elnarə Kərimova vaxt azlığına rəğmən suallarımızı cavablandırdı.

*– Yaddaqalan ustad dərsinə görə təşəkkür edirəm. Filarmoniyadakı konsertinizlə bağlı təəssüratınızı öyrənmək istərdim.*

– Bizim üçün çox məsuliyyətli bir konsert idi. Pandemiya şərtləri ilə kollektivimizin Bakıya gəlməsi bir möcüzə oldu. Buna görə Mədəniyyət Nazirliyinə təşəkkür edirəm. Səfərimiz bu yeni layihə çərçivəsində reallaşdı. Bilirsiniz ki, bizim xor kollektivinin tam heyətini gətirə bilmədik. 17 nəfərlə gəldik. Bu səbəbdən də həyəcan yaşayırdıq ki, necə keçəcək, necə alınacaq. Salonda tamaşaçıların bizi isti qarşılaması, təbii ki, xoş aura yaratdı və çox məmnun qaldıq. "Mədəniyyət" kanalı konserti lentə aldı.

*– 1992-ci ildən qardaş Türkiyədə yaradıcı fəaliyyətlə məşğulsunuz. Oradan baxanda Azərbaycan xoru necə görünür?*

– Çox gözəl. Gənc simalar və kollektiv görürəm. Biz dahi Qara Qarayevin "Dəniz neftçilərinin mahnısı"nı "Zəfər marşı"na işlənmiş variantda Azərbaycan Dövlət Xor Kapellası ilə birlikdə ifa etdik. Mükəmməl bir çalışma idi və kollektiv güclü səslərdən ibarətdir.

*– Çalışdığınız kollektivdə çox pozitiv bir enerji gördük. Bir az da onlar haqqında danışaq.*

– Xor musiqisi həm çətin, həm də asandır. Pozitiv enerji xorda əsas şərtdir. Əgər kollektivdə kimsə qəmgin, kədərli olarsa, onun səsi də, əhvalı da təsirsiz ötüşmür. İnsan nə zaman mahnı söyləyər, əlbəttə ki, xoşbəxt olanda. Biz əlimizdən gələni edirik ki, kollektiv xoş əhvalda olsun. Bu, mütləq ifa olunacaq əsərdə də özünü büruzə verir.

*– Ustad dərsinizi izləyərkən maraqlı bir məqam da diqqətimi çəkdi. Sizin çox gözəl vokal imkanlarınız var. Nə vaxtsa solo ifa düşünmüsünüzmü?*

– Əvvəl onu deyim ki, biz çox gözəl təhsil almışıq. Asəf Zeynallı adına Musiqi Kollecində oxuduğum illərdə unudulmaz bəstəkarımız Vasif Adıgözəlov bizim direktor idi. Burada müəllimlərim Anna Listenqard, Leonid Vaynşteyndən dərs aldıq. Kollecdən sonra indiki Bakı Musiqi Akademiyası, o zamankı konservatoriyada bəstəkarlıq təhsili aldım. İndi sizə müəllimlərimin adını sadalayım, necə ki, bu adlar mənim sənət yolumda şansım idilər: Cövdət Hacıyev (bəstəkarlıq), Fərəc Qarayev (polifoniya), Aqşin Əlizadə və Arif Məlikov (orkestr işi), Cahangir Cahangirov (xor işləməsi), Firəngiz Əlizadə (müasir musiqi). Necə deyərlər, bu adlardan keçib gəldim. Atam da tenor səsli idi. Əmim – Əməkdar artist, opera müğənnisi Kamal Kərimov konservatoriyanın Vokal kafedrasına rəhbərlik edib. Səs bizdə ailədən gəlir. Anamın da gözəl səsi var idi. Amma o, hüquqşünas idi. Solo ifaya gəlincə, bəlkə nə vaxtsa xor kollektivimlə birlikdə nə isə hazırlayarıq. Amma heç düşünməmişəm, düzü. Onu da qeyd edim ki, Xor dirijorluğu fakültəsində bir şərt var. Əgər yaxşı bir xormeyster olmaq istəyirsənsə, təbii ki, öncə onu səsinlə nümayiş etdirməlisən. Çünki səs olmasa, anlatmaq çox çətin olur. Bəzən səs olmadan da olur. Amma səsin olması sənətdə müsbət cəhətlərdən biridir. Kollektivə belə oxumalısan, deyə göstəriş veriksə, əvvəl onun örnəyini ortaya qoymalıyıq. Bu onlar üçün daha asan olur.

*– Bir dəfə Milli Konservatoriyada xor konsertinə getmişdim. Rektor Siyavuş Kərimi zarafatla dedi ki, bizdə kollektiv oyunlar alınmır. Futboldur, xordur – bir az çətin işdir...*

– Siyavuş müəllim çox peşəkar bir musiqiçidir. Onun dünyanın tanınmış xor kollektivləri ilə əməkdaşlığı olub və böyük maraqla qarşılanıb. O özü peşəkar olduğu üçün hər zaman mükəmməllik istəyir və haqlıdır da. Bir məsələni deyim ki, Baltikyanı ölkələrdə, həmçinin Almaniyada ən kiçik yaşlardan xor ənənədir. Amma bizdə nə var? Bizdə daha möhtəşəm olan təksəsli muğam var. Xor, təbii ki, lazımdır və zənginliyi danılmaz. Xorun inkişafı isə dirijordan asılıdır. Ustad dərsində də şahidi oldunuz. İştirakçılardan iki qız gəlib xora qoşuldu. Halbuki biri heç musiqiçi deyildi. Amma qısa zamanda adaptasiya oldular. Sıraya qoşuldu, tez anladı və ifaya başladı. Burada dirijorun yanaşması çox vacibdir. Xalqımız istedadlıdır. Əlbəttə ki, belə də olmalı idi...

*– Bir qədər də Türkiyədəki fəaliyyətinizdən danışın. Orada xor sənətinin inkişafı necədir?*

– Mən 30 il əvvəl Azərbaycan Xor Kapellasının bədii rəhbəri idim. Türkiyədən dəvət alanda 2 aylıq getməli idim. Hər işin bir qisməti var. İki aylıq gedib 30 il qalmalı oldum. Türkiyədəki kollektivimiz – TRT-nin Ankara Radiosu xoru 1970-ci ildə yaradılıb. Ölkənin ilk peşəkar xor kollektividir. Biz ənənələrini davam etdirməyə çalışırıq. Türkiyədə potensial çox böyükdür. Orada səs çoxdur və xoru yığmaq çox asandır. Amma yenə də rəhbər azdır. Orada təhsildə xor dirijorluğu bölümü yoxdur. Bu səbəbdən də biz orada bu qədər ili qalmalı olduq.

*– Qarşıdakı yaradıcılıq planlarınızda nələr var?*

– İndilik əsas planımız və arzumuz "Zəfər marşı"nı xorla Qarabağda səsləndirməkdir.

*– Uğur arzulayıram.*

– Biz təşəkkür edirik ki, sənətimizi dəyərləndirib reportaj edirsiniz.

**L.Azəri**

# "Gəldi və yaxşı dostluq əlaqələri yaratdı..."

## Vaqif Mustafayev bir neçə filminin operatoru olmuş Lomer Axvlediani ilə bağlı xatirələrini bölüşdü

Xalq artisti, rejissor Vaqif Mustafayevlə bir neçə filmdə çalışmış Gürcüstan Kinematoqrafçılar İttifaqının katibi, məşhur kinooperator Lomer Axvlediani 88 yaşında dünyasını dəyişib. Vaqif Mustafayevlə "Azərbaycanfilm"də görüşüb sıx əməkdaşlıq etdiyi kino xadimi ilə bağlı fikir və xatirələrini dinlədik.




– Mənim, ümumiyyətlə, Gürcüstan kino xadimləri ilə sıx əlaqələrim var. "Yaramaz" filmində (1988) aktyor Mamuka Kikaleyşvili ilə çalışırdım. Mamuka o zaman rejissor Reza Çxeidzenin "Don Kixot və Sançonun həyatı" filmində çəkilirdi və həmin filmin operatoru Lomer Axvlediani idi. Həmin il tanış olduq və sonra ulu öndər Heydər Əliyev haqqında dörd sənədli filmi Lomer Axvlediani ilə birlikdə çəkdik. Daha sonra "Milli bomba" bədii filminin bir hissəsini də onunla işlədik. Lomer Axvlediani təkcə Gürcüstan miqyasında deyil, dünya miqyaslı operator idi. Mərd, çox istedadlı və yüksək insani keyfiyyətlərə malik idi.

*– Sənətinin özəlliyi nədə idi?*

– Ümumiyyətlə, onun çəkdiyi təsvirlər çox yüksək səviyyədə idi. Rəngləri, işıq və kölgəni yaxşı duyurdu. Onun işini poetik kino istiqamətinə aid etmək olar. O, komediya filmlərini də peşəkarcasına duyurdu. Çəkdiyi ekran əsərlərindən biri də məşhur "Küp" filmidir. Yumor hissi yüksək idi. Maraqlı əhvalat, lətifələr danışardı. Adətən operatorlar azdanışan olurlar. O isə bu cəhətdən kasad deyildi...

*– Azərbaycanlı operatorlar sizinlə çalışdığı vaxtlarda ondan nələrsə öyrənə bildilər?*

– O, Azərbaycana gələndən sonra bu sahədə hər kəslə dost oldu. Bəziləri ilə Moskvada Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutunda birlikdə oxumuşdu. Kino xadimlərinin bir çoxunu yaxşı tanıyırdı. Gəldi və yaxşı dostluq əlaqələri yaratdı.

*– Gürcü kinematoqraflarla əməkdaşlığınızın xüsusi bir səbəbi varmı?*

– Kino incəsənətin beynəlxalq növüdür. Tarixən italyanlar fransızlarla, fransızlar italyanlarla birgə film çəkirdilər. Əsas keyfiyyətdir. Mənim Lomerlə birgə çalışdığım filmləri təsvir etibarilə keyfiyyətli filmlər adlandırmaq olar.

***

Qeyd edək ki, Lomer Axvlediani 1934-cü il oktyabrın 2-də Tbilisidə anadan olub. 1957-ci ildən "Gürcüstanfilm"də operator işləyib. 1978-ci ildə Qahirə Beynəlxalq Film Festivalının xüsusi mükafatına layiq görülüb. "Küp", "Satrfo üçün zinət əşyaları", "Salxineti bəlası", "Payız günəşi", "Doğma yurdum", "Milad ağacı", "Samanişvilinin ögey anası", "Don Kixot və Sançonun həyatı", "Besame", "Ekspress informasiya" və s. filmlərdə operator kimi çalışıb.

**Lalə**

# "Əbədi imzalar"

## Qara Qarayevin əsərlərindən ibarət not toplusunun təqdimatı

Xəbər verdiyimiz kimi, Heydər Əliyev Fondu tərəfindən "Əbədi imzalar" layihəsi çərçivəsində Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərinin notları ilk dəfə toplu halında nəşr edilib.




Fevralın 17-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Qara Qarayevin Ev-Muzeyində dahi bəstəkar Qara Qarayevin əsərlərinin not toplusunun təqdimatı keçirilib.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova tədbiri açaraq layihənin əhəmiyyətindən danışıb. Bildirib ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə ərsəyə gələn topluda Asəf Zeynallı, Cövdət Hacıyev, Fikrət Əmirov, Qara Qarayev, Niyazi və Vasif Adıgözəlovun əsərlərinin notları yer alıb. İcrasına 2019-cu ildə başlanılan "Əbədi imzalar" layihəsi çərçivəsində ümumilikdə 71 məcmuə nəşr olunub. Bununla yanaşı, topluya 12 qovluq da əlavə edilib. Həmin qovluqlar bəzi simfonik və kamera-instrumental əsərlərin müxtəlif alətlər üçün solo partiyalarının notlarıdır.

Diqqətə çatdırılıb ki, topluda nəşr olunan əsərlərin sırasında ilk dəfə işıq üzü görən nümunələr də var. Toplu Azərbaycan musiqisi ənənələrinin, bəstəkarlarımızın əsərlərinin qorunub saxlanılması və yeni nəsil arasında təbliği baxımından əhəmiyyət daşıyır.

Ev-muzeyin müdiri, pianoçu Züleyxa Qarayeva-Bağırova ailəsi adından tədbirə gələnlərə təşəkkürünü bildirib.

Xalq artisti Murad Adıgözəlzadə fortepianoda Qara Qarayevin əsərlərindən parçalar ifa edib.

Tədbirdə Əməkdar rəssam Vüqar Əlinin bəstəkarın Ömər Xəyyamın şeirlərinə yazdığı səs və fortepiano üçün "Altı rübai"nin (1944) təəssüratı altında işlədiyi 6 rəsm əsərinin təqdimatı da olub.

# "Mərmər soyuğu"nun festival yolçuluğu

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası, "Baku Media Center", "İctimai TV" və "Arizona Productions" (Fransa) şirkətləri tərəfindən birgə istehsal edilən "Mərmər soyuğu" tammetrajlı bədii filminin istehsalat prosesi başa çatıb.

"Azərbaycanfilm"dən bildirilib ki, rəng korreksiyası İstanbul şəhərində aparılan filmin hazırda beynəlxalq festivallar üzrə distribusiyası həyata keçirilir.

Film uğursuz rəssamla sevgilisinin qarışıq münasibətlərindən bəhs edir. Uzunsürən həbs həyatından sonra evə qayıdan ata ən radikal yollarla oğlunun həyatına düzən verməyə çalışır...

Filmin ssenari müəllifləri Asif Rüstəmov və Roelof Jan Minneboo (Hollandiya), rejissoru Asif Rüstəmov, təsvir rejissorları Oktay Namazov və Adil Abbasov, quruluşçu rəssamı Rafiq Nəsirov, geyim rəssamı Şahin Həsənli, qrim rəssamı Elbrus Vahidov, baş prodüseri Fariz Əhmədov, kreativ prodüseri İradə Bağırzadədir. Əsas rolları Elşən Əsgərov, Natəvan Abbaslı və Xalq artisti Qurban İsmayılov canlandırıblar.

# "Mənim günahım"ın növbəti tamaşası İsmayıl Dağıstanlının xatirəsinə ithaf olunub

Fevralın 20-də Akademik Milli Dram Teatrında İlyas Əfəndiyevin "Mənim günahım" əsərinin növbəti tamaşası görkəmli aktyor, Azərbaycanın və SSRİ-nin Xalq artisti, Dövlət mükafatları laureatı İsmayıl Dağıstanlının (1907-1980) 115 illiyinə ithaf olunub.




Tamaşadan əvvəl Xalq artistləri Hacı İsmayılov və Rafiq Əzimov çıxış edərək İsmayıl Dağıstanlının Azərbaycan teatr sənətində xidmətlərindən söz açıb, onunla bağlı xatirələrini bölüşüblər.

Sonra "Mənim günahım" tamaşası nümayiş olunub. Tamaşanın rejissoru Xalq artisti Mərahim Fərzəlibəyovdur. Rolları Xalq artistləri Məleykə Əsədova, Hacı İsmayılov, Əməkdar artistlər Əlvida Cəfərov, Elşən Rüstəmov, Elnar Qarayev, aktyorlar Dilarə Nəzərova, Rüstəm Rüstəmov, Ləman İmanova, Cümşüd Zeynalov və Rada Nəsibova ifa ediblər.

Qeyd edək ki, ikihissəli dramın quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, musiqi tərtibatçısı Kamil İsmayılov, işıq üzrə rəssamı Rafael Həsənovdur.

Xalq yazıçısı İlyas Əfəndiyevin "Mənim günahım" pyesi Akademik Milli Dram Teatrında ilk dəfə 1967-ci ildə tamaşaya (rejissor – Əşrəf Quliyev, rəssam – Böyükağa Mirzəzadə, musiqi tərtibatı – Soltan Hacıbəyov) qoyulub. İsmayıl Dağıstanlı tamaşada Tahir rolunu oynayıb.

# "Qarabağ nağılı" və "Tarix" ilin ilk yarısında təhvil veriləcək

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi tərəfindən ötən il elan edilmiş "Böyük qayıdış" kino layihələri müsabiqəsində bədii, sənədli və animasiya filmləri olmaqla ümumilikdə 11 layihə seçilmişdi. Seçilən layihələrin istehsalı istiqamətində işlər davam etdirilir.

Layihələrdən ikisi animasiya filmidir. "Qarabağ nağılı" "Birlik" studiyasının istehsalıdır. Ssenari müəllifi və rejissoru Firəngiz Qurbanova olan film Zəfər Günündə ata ilə uşağın söhbətindən bəhs edir. Ata övladına xeyirin şər üzərində qələbə çaldığı bir nağıl danışır.

"Tarix" filminin rejissoru Ceyhun Türksoy, ssenari müəllifi Orxan Behbiddir. "OB film" studiyasının istehsal etdiyi film Qarabağın işğalı ilə heç cür barışmayan və sonda 27 illik işğalın üstündən qürurla xətt çəkən igid oğlan haqqındadır.

Hər iki animasiya filmi bu ilin ilk yarısında təhvil veriləcək.

№15 (1888)
23 fevral 2022
www.medeniyyet.az

Şuşalı Milli Qəhrəmanlar

# "İstəyirdi düşmən bilsin ki, o, Xankəndidən olan Nizamidir..."



Xalqımız tarixdə çoxlu müharibə görüb, neçə-neçə yadelli işğalçı ilə qarşılaşıb. Lakin heç zaman əyilməyib, Vətən, torpaq sevgisi, dilinə, mədəniyyətinə bağlılığı onu ayağa qaldırıb, yaşadıb, gələcəyə aparıb. Bu mənada Vətəni canından əziz bilən igid oğullarımızın da fədakarlığını, qəhrəmanlığını unuda bilmərik.

Dövlət başçısının sərəncamı ilə 2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan edilməsi Azərbaycanın ədəbiyyat və mədəniyyətində, tarixində mühüm yerə sahib 270 yaşlı şəhərimizin dəyərlər sisteminə yenidən nəzər salmaq imkanı deməkdir. "Şuşalı Milli Qəhrəmanlar" silsiləsində əsli Şuşadan olan və ya vaxtilə orada doğulub boya-başa çatmış şəhid Milli Qəhrəmanlarımız barədə söz açacağıq.

Bu silsilədən ilk olaraq Milli Qəhrəman Nizami Məmmədovun həyat və döyüş yolundan bəhs edəcəyik.

Nizami Murad oğlu Məmmədov 1958-ci il yanvarın 12-də Azərbaycanın Xankəndi şəhərində dünyaya göz açıb. Nizami Gəncəvi adına 4 saylı şəhər orta məktəbini bitirib. 1975-1977-ci illərdə İrkutsk vilayətində (Rusiya) hərbi xidmətdə olub. Əsgərlikdən qayıdandan sonra Xankəndi şəhərində Yaşıllaşdırma idarəsində, daha sonra Qarabağ İpək Kombinatında çalışıb. Polis olmaq arzusu ilə SSRİ Daxili İşlər Nazirliyinin Bakı Xüsusi Orta Milis Məktəbinə (indiki Daxili İşlər Nazirliyi Polis Akademiyası) daxil olur, oranı bitirdikdən sonra Xankəndi Şəhər Polis Şöbəsində işləməyə başlayır. 1988-ci ildə erməni millətçiləri Qarabağ xülyasına düşüb separatçılığa başlayanda onu Xankəndidən Şuşa RPŞ-yə göndərirlər.

Nizami Məmmədov 1988-1989-cu illərdə erməni silahlı dəstələrinin Qarabağdakı azərbaycanlı yaşayış məntəqələrinə basqınlarının artdığı vaxtda Kərkicahan, Qaybalı və digər kəndlərin müdafiəsində iştirak edib. Birinci Qarabağ müharibəsi gedişində Malıbəyli, Qaladərəsi və digər əməliyyatlarda çətin döyüş tapşırıqlarını uğurla yerinə yetirib. Döyüşlərdə düşmənin canlı qüvvəsini və hərbi texnikasını məhv edib. Qarabağ uğrunda döyüşlərdə şəxsi şücaəti, igidliyi ilə seçilən Nizami Məmmədov 1992-ci il martın 29-da Şuşa Şəhər Polis Şöbəsinin bombalanması nəticəsində şəhid olub.

Şəhidin qardaşı Rövşən Məmmədov qeyd edir ki, Nizami ailənin böyük övladı olub: "Ailədə üç övlad olmuşuq. Üçümüz də Xankəndi şəhəri N.Gəncəvi adına 4 saylı orta məktəbi bitirmişik. Nizami uşaqlıqda futbola həvəs göstərirdi...".

Milli Qəhrəmanın polis yoldaşı Akif Əliyev bildirir ki, Xankəndidə Nizami ilə bir yerdə böyüyüb: "Orta məktəbi də bir yerdə oxumuşuq. Uşaqlığımız demək olar ki, bir yerdə keçib. Polis olmaq onun ən böyük arzusu idi".

Şəhidin döyüşçü yoldaşı Hidayət Əliyevsə söyləyir ki, Nizami istəyirdi düşmən onu tanısın: "Açıq döyüş aparırdı. İstəyirdi ki, düşmən görsün ki, bu adam Xankəndidən olan Nizamidir. Nizami istəyirdi ki, düşmənlə üzbəüz döyüşsün, onlardan qisas alsın. Ona görə ki, onun doğulduğu yer, evi düşmən işğalında idi...".

Milli Qəhrəmanın digər polis yoldaşı Orduxan Kərimov bildirir ki, 1992-ci il martın 29-u – Nizaminin şəhadətə ucaldığı gün Qarabağda gedən ən ağır döyüşlərdən biri olub: "Bizim aldığımız məlumata görə, həmin döyüşdə 120-dən artıq düşmən məhv edilmişdi. Həmin gün bizim sonradan Milli Qəhrəman adı alacaq üç nəfər döyüşçümüz şəhid oldu. Onlardan biri də Nizami Məmmədov idi...".

Nizami Məmmədov 1992-ci il martın 30-da Bərdə rayonunun Dəymədağlı kəndində torpağa tapşırılıb. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 8 oktyabr tarixli fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Üç övlad atası idi. Oğulları Natiq, Namiq, Naiq ataları ilə fəxr edərək böyüyüblər.

Onun şəhid olmasından artıq 30 il keçir. 2020-ci ilin Vətən müharibəsində Azərbaycan Ordusu Nizaminin və bütün şəhidlərimizin qanını yerdə qoymadı, torpaqlarımızı işğaldan azad etdi.

Rahat uyu, şəhidim. Uğrunda canını qurban verdiyin mədəniyyət beşiyimiz Şuşa şəhəri də artıq azaddır. Qarabağımızda üçrəngli şanlı bayrağımız dalğalanır.

Qeyd edək ki, Abşeron rayonu Masazır qəsəbəsindəki küçələrdən biri hazırda Nizami Məmmədovun adını daşıyır.

Allah rəhmət eləsin.

**Nurəddin**

# Şaiq olmaq üçün...

O, hiss, arzu və istəklərindən, görünən və görünməyən özündən sənətimizə nələr vermişdi, görəsən?! Bu haqda fikir yürütmək elə də asan deyil. Amma onu əvvəl uzaqdan, sonra nisbətən yaxından tanıdığımız (təbii ki, tanıtdığı qədər) bu illər ərzində hamı mütləq mənəvi qatda qazanclı olduğu üçün xoşbəxt idi... Rəsmiyyətdən, bəlağətdən uzaq, amma sənətin tam ortasında olan adam idi.

Hamının qərib qonaq olduğu bu dünya ilə haqq-hesabı, alıb-verəcəyi yox idi bu daim rəngli adamın. Rəngli niyə dedim? O, təkcə geyim-kecimində avanqard, yenilikçi, çoxçalarlı deyildi. Xasiyyətində, ətrafına münasibətində, ən əsası da qəlibə sığışmayanlar arasında nikbin və təkrarsız idi. Bəli, Şaiq Səfərov Azərbaycan teatr mədəniyyətinin ən maraqlı, ən təəssübkeş və ən səmimi simalarından idi.

Bəzən kimisə təsvir edərkən "O, bu dünyanın adamı deyildi" kimi bənzətmələr edir və əslində, üzündə qanqallar bitirən adamların sırasından sıyrılıb göylərə daha tez çəkilməsinə sevinirmiş kimi özümüzə təsəlli veririk. Arabir vədəsiz itki ilə barışmazlığımızı daxili üsyana da çeviririk. Amma bunların heç birində "Niyə o qürurlu adam(lar)ı qoruya bilmədik?!" kimi özünüittiham gedib çıxa bilmirik...

Şillerin sözüdür, "Açıq qəlbi insanın alnı da açıqdır". Tamamilə düzdür. Şaiq Səfərovu az-çox tanıyanlar, onunla ünsiyyətdə olanlar, ən azı bir dəfə birlikdə səfərə çıxanlar birmənalı olaraq bu insanın necə açıq ürəyə, təmiz vicdana və ən əsası da mənəvi zənginliyə malik olduğunu deyirlər.

Yanvarın 27-də, 68 yaşında itirdik teatrşünas, rejissor Şaiq Səfərovu. Onun itkisi Azərbaycan mədəniyyətinin, teatrının itkisi idi. Ucaboy və həlim adamın səssiz köçü barədə hamı bir-birinə pıçıltı ilə xəbər verdi. Hərə əlinin arxası ilə sildiyi göz yaşlarında dilləndirdi kədərini. Beləcə, bu dünyasında olduğu kimi o dünyasına yolçuluğunda da səssiz və səmimi sevgi ilə ehatələndi Şaiq Səfərov...

Şaiq Cabir oğlu Səfərov 1954-cü il dekabrın 18-də Bakıda anadan olmuşdu. 1972–1977-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) Rejissorluq fakültəsini bitirmiş, müxtəlif illərdə Gəncə Dövlət Dram, Sumqayıt Dövlət Dram, Azərbaycan Dövlət Akademik Milli Dram, Azərbaycan Dövlət Akademik Rus Dram teatrlarında çalışmışdı.

Bir müddət Mədəniyyət Nazirliyinin İncəsənət şöbəsində Teatr sektorunun müdiri kimi də fəaliyyət göstərmişdi. 2012, 2014, 2016 və 2018-ci illərdə Bakıda keçirilən Beynəlxalq Teatr Konfransı və 2011, 2013-cü illərdə təşkil olunan "Cırtdan" Beynəlxalq Kukla Teatrları Festivalının hazırlıq və təşkilati məsələlərində böyük əməyi olmuşdu. O, həmçinin dəfələrlə Azərbaycanı xarici ölkələrdə teatr simpoziumlarında, treninq və seminarlarda, müsabiqə və festivallarda (fəxri münsif kimi) layiqincə təmsil etmişdi.

Onun Azərbaycan teatrının təbliğindəki əvəzsiz xidmətləri haqqında çox yazmaq olar. Amma təriflənməyi sevməyən, hətta bundan utanan adam olduğunu bildiyimdən bu fikrimdən daşınıb sözü uzaq gənclikdən yaxın dünənədək yolu onunla kəsişənlərə verirəm.

Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Aydın Talıbzadə:



– Şaiq bizim teatr mədəniyyətinin çox nadir adamlarından biri idi ki, yaşca məndən böyük olmasına rəğmən, onunla, əlbəttə ki, etik normalar çərçivəsində zarafatım vardı. O, beynəlxalq konfranslar, festivallar zamanı səhnəyə çıxıb ingiliscə danışmaqdan, təşkilatçı qabiliyyətini nümayiş etdirməkdən, sənətçiləri bir-birilə görüşdürməkdən, əcnəbilərin sevgisini qazanmaqdan, hadisənin mərkəzində dayanmaqdan aşırı bir həzz duyurdu və eyni zamanda bu həzzi öz təvazökarlığı ilə pərdələməyə çalışırdı. Bunu onun üzünə dik söyləyəndə çönüb yuxarıdan aşağı məni süzürdü və əliylə özünü göstərib ironik bir təbəssümlə, bariton səsinin cazibəsində deyirdi: "Aydın, xarizma". Odur ki, mən də onun adını qoymuşdum "xarizmatik adam"!



Və bu adı Şaiq yüzdə yüz haqq edirdi. Ucaboy, qamətli, qürurlu birisi idi: ingiliscə, rusca sərbəst danışırdı və yazırdı, azərbaycancasına isə söz ola bilməzdi; hər hansı məclisin, əgər ovqatı kök idisə, anındaca mərkəzi fiquruna çevrilirdi. Amma bununla bərabər özü haqqında heç qışqırmırdı, heç mənəm-mənəm demirdi, həmişə ikinci plana keçib dayanırdı, insanlarla lütfkarcasına davranırdı. Di gəl ki, bu "xarizmatik adam" həm də çox çətin adam idi; yaxınları ilə sərt və acıdil də ola bilirdi. Hərçənd onu yetərincə yaxşı tanıyan dostları bu "xarizmatik adamı" bağışlamağı bacarırdılar. Nədən ki, bilirdilər: ürəyi, əqidəsi təmizdir, içi safdır.

Ölkələri, şəhərləri gəzməyi çox sevirdi, bir də kompüter oyunlarını. Bilirsiz niyə? Çünki Şaiq həyatı boyu düşüncə, təfəkkür baxımından, zövq baxımından permanent yenilənməyi hədəfləyirdi və bunu xoşlayırdı. Təsadüfi deyil ki, Şaiqə, mən müşahidə etdiyim qədərincə, teatrın özündən daha çox teatr prosesi maraqlı görünürdü və o, bütün qüvvəsini məhz bu prosesi canlandırmağa, dəyişməyə, müasirləşdirməyə yönləndirirdi. Köhnəlmək, müəyyən çərçivələrə sığışıb qalmaq ondan ötrü ölümə bərabər bir nəsnə idi. Bəlkə də ona görə Şaiq qocalmadan öldü, öz xarizmasını itirmədən öldü; öldü ki, bu dəfə ruhunu azadlığa buraxıb onu birdəfəlik göndərsin dünya səyahətinə...

A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi **Rəşad Əhmədzadə**:

– Şaiq Səfərov tanıdığım ən səmimi, dürüst və sadə insanlardan idi. Belə bir söz var: "Dost yolda tanınar". Bizim onunla çoxlu xarici səfərlərimiz olub, beynəlxalq teatr festivallarında, konfrans və görüşlərində birgə iştirak etmişik. Şaiq teatrı, sənəti, səhnəni çox sevirdi. Milli teatrımızın dünyada tanınmasında daim əlindən gələni etməyə çalışırdı. Təsadüfi deyil ki, ölkə teatrlarının beynəlxalq arenaya çıxışında onun böyük rolu var. Bundan başqa, ölkəmizdə keçirilən beynəlxalq teatr konfransları, xüsusən "Cırtdan" teatr festivalında onunla dolğun əməkdaşlığımız olub. Teatr bir sənət prosesi kimi onun üçün çox maraqlı idi. Şaiq mütərəqqi düşüncəli, təəssübkeş və qürurlu Azərbaycan insanı idi. Həyatsevərliyi və sədaqəti ilə onu daim xoş xatirələrlə yad edəcəyəm....

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının direktoru **Naidə İsmayılzadə**:

– Şaiq Səfərov – intellektual insan, nümunəvi ziyalı. Mən onun haqqında keçmiş zamanda danışmaq istəmirəm və heç zaman da danışmayacam. Şaiq bəydən öyrənəsi çox şey var: düzgün ünsiyyət forması, çox mülayim şəkildə ən sərt fikirlərin dilə gətirilməsi, geniş dünyagörüşü...

Bakı Beynəlxalq Teatr konfranslarının, "Cırtdan" Beynəlxalq Kukla Teatrları Festivalının, saysız-hesabsız treninqlərin, dünya miqyasında tanınmış teatr bilicilərinin iştirakı ilə görüşlərin keçirilməsi məhz onun köməyi ilə gerçəkləşmişdi, Azərbaycan teatrının Beynəlxalq Teatr İnstitutu ilə (BTİ) əməkdaşlığının təməli qoyulmuşdu. Gənc Tamaşaçılar Teatrı ASSİTEJ-ə, Azərbaycan Dövlət Kukla Teatrı UNİMA-ya üzv seçilmişdi.

Azərbaycan teatrları Fuceyrada (BƏƏ) keçirilən beynəlxalq monodram festivalının daimi iştirakçısına çevrilmişdi. Bu sıraya daha neçə-neçə irimiqyaslı və vacib teatr tədbirini əlavə edə bilərəm. Sadəcə, deyilənlərin hesabata çevrilməsini istəmirəm...

C. Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi **Sevinc Mikayılova**:

– Şaiq müəllimlə daha sıx ünsiyyətimiz Bakıda keçirilən teatr tədbirləri zamanı yaranmışdı. Onun hərtərəfli təşkilatçılıq bacarığı, kreativ düşüncə tərzi hər kəsin diqqətini cəlb edirdi. Bu bacarıqları ilə birgə həm də çox sadə və mehriban insan idi. Mənə, muzeyimizə daim dost münasibəti olub. Onunla çox rahatlıqla ünsiyyətə girib, sənət sahəsində istənilən məsələ ilə bağlı məsləhət ala bilirdim. Çox maraqlı və dolğun, dürüst insan idi. Teatr tariximiz, teatr sənətimizin təbliği ilə bağlı xidmətləri, qurduğu əlaqələri hələ uzun illər onu bu kimi xoş xatirələrlə yad etməyimizə imkan verəcək...

Daim təzə, kövrək, səmimi xatirələrdən, xatırlatmalardan da aydın görünür ki, Şaiq olmaq heç də asan olmur, heç olmayacaq da. Həm onun yaşantıları, həm də onu sevgi ilə xatırlayanların ağrıları kimi.

Ruhun şad olsun, işıqlı və sadə adam...

**Həmidə Nizamiqızı**

# Özbək xalqının mübariz ədibi və dövlət xadimi

Ötən əsrin birinci yarısında özbək ədəbiyyatında milli ruh və azadlıq duyğularını alovlandıran rəngarəng əsərlər qələmə alan ədiblərdən biri də şair, nasir, dramaturq və dövlət xadimi, repressiya qurbanı Əbdürrauf Fitrətdir.

Əbdürrauf Əbdürrəhman oğlu (Fitrət) 1886-cı ildə Özbəkistanın Buxara şəhərində tacir ailəsində anadan olub. İlk təhsilini "Mirərəb" mədrəsəsində alır. Erkən çağlardan poeziyaya maraq göstərir. Mütaliə yolu ilə Şərq şairlərinin yaradıcılığı ilə yaxından tanış olur. Dünyəvi elmlərlə də maraqlanır, dini dəyərlərə bağlı olur. 1904-cü ildə Həcc ziyarətinə gedir. Məkkədən qayıdarkən bir müddət İstanbulda qalır. Şəhərin mütərəqqi fikirli gəncləri ilə ünsiyyət qurur.

Buxaraya qayıdan Əbdürrauf doğma yurdunda rus özbaşınalığı ilə barışa bilmir. 1909-cu ildə Buxara yenilikçilərinin (cədidçilər) məsləhəti ilə yenidən Türkiyəyə gedir. İstanbul Universitetinə qəbul olunur. Eyni zamanda müxtəlif ictimai-siyasi təşkilatlarla maraqlanır. "Gənc Türklər" hərəkatına rəğbət bəsləyir. Yaradıcılığa da vaxt ayırır. Tələbələr arasında istedadlı gənc kimi tanınır. Tələbə ikən "Münazara" (1909), "Sayha" (1911), "Hind səyyahı" (1912) adlı şeir kitabları işıq üzü görür.

Əbdürrauf 1913-cü ildə təhsilini başa vurub Buxaraya dönür. Yaradıcılığa daha çox üstünlük verir. Vaxtının çoxunu Buxara əmirinin zəngin kitabxanasında keçirir. Dövri mətbuatda "Fitrət" imzası ilə məqalələr dərc etdirir. İnqilabi ruhlu pyeslər qələmə alır. Teatr tamaşaları hazırlayır. Məmurların özbaşınalığını tənqid edir, xalqı hüquqlarını müdafiə etməyə cəsarətləndirir.



Çar Rusiyasının müstəmləkəçilik zülmünə etiraz olaraq Ə.Fitrət, Ə.Çolpan, K.Ramazanov, Elbek, Ş.Rəhimi, G.Zəfəri, M.M.Şərməhəmmədov, Q.Yunusov, Batu, S.Sıddıqov kimi fikir adamlarından ibarət "Çağatay Qrungi" adlı ədəbi təşkilat yaradılır. Az vaxt ərzində bu ədəbi təşkilatın ətrafına gələcəyin istedadlı şair və yazıçıları toplaşır. Cədidçilər çox keçmir türk birliyi ideyasını önə çəkir və milli-tarixi yaddaşa söykənən ədəbi nümunələr yaradırlar...

Əbdürrauf Fitrətin "Yurd qayğısı" adı ilə dərc olunan üç mənsur şeiri var. Müəllif "Yalan" adlı ilk şeirində türk millətinə, Turan elinə müraciətlə yazır: "Yox... yox... Tanrı haqqı üçün yox!... Sən gücsüz, kimsəsiz deyilsən. Bu gün yer üzündə 80 milyon övladın var. Onların damarlarında Çingiz xan və Əmir Teymurların qanı axır. Onların gücləri sənin gücündür!... Ey ulu Turan, aslanlar ölkəsi! Sənə nə oldu? Dünyanı titrədən aslan ürəkli övladların hanı? Niyə səsləri çıxmayır?... Niyə getdilər? Mücadilə meydanlarını yadlara niyə buraxdılar?".

Tədqiqatçı Əli Şamil mövzu ilə bağlı araşdırmasında yazır ki, Ə.Fitrət 1917-ci il Oktyabr inqilabına, sovet hökumətinin gələcəyinə ümidsizliyini ifadə edərək yazıb: "Rusiyada yeni bir bəla ortaya çıxdı, bolşevik bəlası!". Ancaq o, 5 dekabr 1917-ci ildə cədidçilərin rəhbərliyi ilə "Kokand muxtariyyəti"nin qurulmasını "Hürriyyət" qəzetinin baş redaktoru kimi böyük sevinclə qarşılayır.

Həmfikirləri ilə gizli şəkildə "Gənc buxaralılar" təşkilatını qururlar. Ancaq təzyiqlərlə üzləşirlər. Bütün bunlara baxmayaraq, Ə.Fitrət yolundan dönmür. Bir-birinin ardınca "Əbu Müslüm", "Temur sağanası", "Oğuzxan" pyeslərini yazır. Bolşeviklər isə Türküstanda möhkəmlənməyə çalışırlar. Çətinliklərlə qarşılaşanda xalqı öz tərəflərinə çəkmək üçün bərabərlik və azadlıq barədə bol-bol vədlər verirlər. Cədidçilərin bir çoxu bolşeviklərin şirin vədlərinə inanır və onların fəallarına çevrilirlər. Ə.Fitrət də Kommunist Partiyasına üzv olur. 1921-ci ildə maarif naziri, 1922-ci ildə Nazirlər Soveti sədrinin müavini təyin edilir...

Ancaq çox keçmir Ə.Fitrət xüsusilə milli məsələlərdə bolşeviklərin hərəkətləri ilə razılaşmır. Əmrləri yerinə yetirmir. Bunu görən mərkəzi rəhbərlik onu partiya və hökumət işindən uzaqlaşdırır. O, mübarizəsindən geri çəkilmir. "Əbülfeyzixan", "Hind ixtilalçıları", "Arslan" və s. pyeslər, hekayələr yazır. Eyni zamanda elmi araşdırmalar da aparır. Onun klassik şairlər haqqında bir çox elmi məqalələri özbək ədəbiyyatı ilə bağlı dərsliklər üçün qaynağa çevrilir.

Ə.Fitrətin ibtidai və orta məktəblər üçün "Okuv" kitabı 1917-ci ildə Bakıda çap olunub. "Hind ixtilalçıları" pyesi isə şair, "Yeni füyuzat" jurnalının redaktoru Əlipaşa Səbur Hüseynzadə tərəfindən Azərbaycan dilinə uyğunlaşdırılır və tamaşaya qoyulur.

30-cu illərin Stalin repressiyaları Əbdürrauf Fitrətin də ömrünü yarıda kəsir. 1937-ci ildə millətçilikdə və əksinqilabi fəaliyyətdə təqsirli bilinərək həbs edilən şair 4 oktyabr 1938-ci ildə güllələnir. Əsərləri kitabxanalardan yığışdırılır və müsadirə olunur...

Qadağalara baxmayaraq, özbək xalqı vətənpərvər şairini unutmur. Onun "Ədəbiyyat qeydləri", "Özbək xalq musiqisi və onun tarixi", "Özbək ədəbiyyatı nümunələri", "Əruz haqqında" kitabları gizlin şəkildə mütaliə olunur, təbliğ edilir.

**Savalan Fərəcov**

## Qarabağ qazisinin "Ünvansız məktub"u nəşr edilib

Qarabağ qazisi Ayaz Məmmədovun "Ünvansız məktub" xatirə povesti "Yeni poliqrafist" nəşriyyatında çapdan çıxıb.

Qarabağ döyüşlərinə həsr olunmuş əsərdə müəllif keçdiyi döyüş yollarına nəzər salır, cəbhədə baş vermiş hadisələri, keçirdiyi hissləri, təəssüratlarını oxucularla bölüşür.

Kitabın annotasiyasında qeyd olunur ki, xatirə-povesti döyüşdə olan bir əsgərin gündəliyi kimi də təsnif etmək olar: "Ünvansız məktub"u həyəcansız oxumaq olmur və onu oxuyarkən müharibənin dəhşətli mənzərələrinin, dağıntılarının, düşmənin işğalçılıq siyasətinin şahidi olur, eyni zamanda igid əsgərlərimizin şücaəti, qorxmazlığı, Vətən sevgisi ilə tanış olaraq qürurlanırıq...".

Kitabın tərtibçisi və məsləhətçisi AYB-nin katibi, yazıçı-dramaturq Elçin Hüseynbəyli, redaktoru yazıçı Narıngül Nadir, rəssamı Ədalət Həsəndir.

# Mərkəzi İncəsənət Məktəbində Tofiq Bakıxanovun yubileyi münasibətilə konsert






Fevralın 17-də Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində görkəmli bəstəkar, Xalq artisti, professor Tofiq Bakıxanovun yubileyi münasibətilə "90 yaşlı musiqi qəhrəmanı" adlı tədbir keçirilib.

Tədbirin təşkilatçısı və aparıcısı musiqişünas Nərgiz Kərimova bəstəkarın həyat və yaradıcılığından söz açıb, onun əsərlərindən ibarət konsert proqramı haqqında məlumat verib.

Sonra məktəbin şagird və müəllimlərinin ifasında Tofiq Bakıxanovun əsərləri səslənib.

Konsertdə bəstəkarın mahnılarından ibarət diskin təqdimatı da keçirilib. Diski Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin vokal ixtisası üzrə müəllimi İslamə Abdullayeva hazırlayıb.

Mərkəzi İncəsənət Məktəbinin direktoru, Əməkdar artist Əziz Qarayusifli məktəbin rəsm müəllimi Əli Ağadadaşovun çəkdiyi portreti bəstəkara hədiyyə edib.

Tədbirin yüksək səviyyədə təşkilinə görə məmnunluğunu ifadə edən Tofiq Bakıxanov iştirakçılara təşəkkürünü bildirib. Bəstəkar məktəbin şagirdi Əmirə Terequlovaya gözəl ifasına görə hədiyyə təqdim edib, uğurlar arzulayıb.

# Azərbaycan incəsənətində sintez

## XX əsr divar rəsmlərinin estetikası haqqında



Qədim tarixə və özünəməxsus bədii ənənələrə malik olan Azərbaycan monumental-dekorativ rəngkarlığının XX əsrdə – bolşevik işğalından sonrakı inkişaf mərhələsinin zənginliyi ilə seçilməsi yeni iqtisadi-siyasi durumla bağlı olmuşdur. Başqa sözlə desək, əvvəlki əsrlərdən fərqli olaraq yeni şərait və tələblər ən müxtəlif funksiyalı tikililərin bəzədilməsinə imkan vermişdir. Amma ötən əsrin Azərbaycanın sovetləşməsinə qədərki iki onilliyində də monumental sənət sahəsində müəyyən işlər görülmüşdü. Bakının ayrı-ayrı evlərində indiyə qədər "Şərq mövzusu"nu ("Leyli və Məcnun", "Əsli və Kərəm" və s.) əhatə edən həmin rəsmlərin qalması da dediklərimizi təsdiqləyir.

Bu yerdə monumental-dekorativ rəngkarlığın bilavasitə yeni tikililərlə bağlı yaradıldığını və bu mənada ilk bir neçə onillikdə respublikada ciddi tikinti işlərinin aparılmadığını vurğulamaqla monumental sənətin də zəif inkişaf etdiyini söyləməliyik. Yalnız İkinci Dünya müharibəsindən sonrakı dövrdə tikinti-quruculuq işlərinə böyük təkan verilməsi tərtibat işlərinin də vüsət almasına zəmin yaratmışdır. Həmin illərdə inşa olunan müxtəlif funksiyalı yeni tikililərin bəzədilməsinə misal olaraq Bakının Xətai rayonundakı Mədəniyyət sarayının, Texniki təhlükəsizlik muzeyinin, Masallı, Füzuli, Ağdam və digər rayonlardakı kolxoz mədəniyyət evlərinin divar və tavanlarında yer almış süjetli və ornamentli tərtibatların adlarını çəkmək olar. Bu mənada istedadlı rəngkarlar Baba Əliyev, Nadir Əbdürrəhmanov, Böyükağa Mirzəzadə, Səttar Bəhlulzadə, İqor Rıjenko və başqalarının həmin tikililərin divar və tavanları üçün süjetli kompozisiyalar və mənzərə işləmələrini qeyd etmək olar.

Masallının Şərəfə kənd Mədəniyyət evinin 1955-ci ildə həyata keçirilən bəzək işlərini Oqtay Sadıqzadə və Ağa Mehdiyev həyata keçirmişdi. Onların əmək və istirahət mövzusunda yaratdıqları səkkiz divar rəsmi şux və cəlbedici boyaları ilə məkana xüsusi nikbinlik bəxş edirdi.

Müharibədən sonrakı illərdə Oqtay Şıxəliyev, Tofiq Ağababayev, Arif Ağamalov, Qorxmaz Əfəndiyev, Həsənağa Ələsgərov, Hüseyn Hüseynov, Hacağa Rəcəbov, Rəhim Məmmədov və başqalarının SSRİ-nin müxtəlif şəhərlərində monumental sənətin bədii-texniki vərdişlərinə yiyələnmələri 50-ci illərdə bu sahədə uğurlu əsərlərin yaranmasına səbəb oldu.

Bununla belə, etiraf edək ki, respublikada yaradılan və ictimaiyyətin duyulası rəğbətini qazanan monumental divar rəsmi Toğrul Nərimanbəyovun A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının binasının interyerini bəzəyən böyük həcmli "Nağıllar aləmində" əsəri (1975-1978) olmuşdur. Azərbaycan şifahi xalq yaradıcılığı nümunələrini bir araya gətirərək, tamaşaçı düşüncələrini qanadlandırmaq qüdrətinə malik olan bu divar rəsmində (ümumi sahəsi 350 kvadratmetr) məna-məzmun daşıyıcıları olan çoxsaylı qəhrəmanlara "nağıl tutumu" verməyə nail olan müəllif nəticədə əsərin möhtəşəmliyinə, ən başlıcası isə, onun qərarlaşdığı məkanın memarlığı ilə uğurlu sintezinə nail olmuşdur...



Keçmiş "Moskva" mehmanxanasının (indiki "Alov qüllələri"nin yerində) foyesində mövcud olmuş "Aşığın nəğməsi" (1978) adlı divar rəsmi (35 kvadratmetr) də maraqlı sənət nümunələrindən idi. Burada da rəngin emosionallıq yaratmaq gücündən istifadə edən rəssam aşığın insanı duyğulandıran nəğməsində öz ətrafında baş verənlərə – yurdumuzun müasir durumuna "bədii güzgü" tutmuş, müxtəlif süjetlərin köməkliyi ilə nikbinliklə dolu lövhə – bədii məkan yarada bilmişdi.

Rəssamın 1979–1980-ci illərdə Ali Sovetin (Milli Məclisin) foyesində yaratdığı "Çiçəklən, mənim yurdum!" divar rəsmi (130 kvadratmetr) əvvəlki iki əsərdən fərqli olaraq məna-məzmun ümumiləşdirmələri ilə seçilir. Doğma Azərbaycanın uzaq-yaxın keçmişinə rəmzi-fəlsəfi "bədii güzgü" tutan, görkəmli şəxsiyyətlərini və tarixi abidələrini bir araya gətirən rəssam çox cəlbedici və duyğulandırıcı monumental lövhə ərsəyə gətirmişdir.

Monumentalçı-rəssam Yaqub Mehdiyevin Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Sanitariya Maarifi Evinin interyerində yer alan "Təbabət elmi" (1978) adlı əsəri (90 kvadratmetr) onu seyr edənlərə bu sahənin qədimlərdən bu günə kimi uzanan inkişaf yolu, görkəmli təbiblərin obrazları ilə tanış olmağa imkan yaratmışdır.

Çingiz Fərzəliyevin Bakıdakı "Arzu" şadlıq sarayında işlədiyi "Azərbaycan toyu" (1973) adlı divar rəsmindəki kolorit şuxluğu isə ilk növbədə məkan funksiyasından qaynaqlanmaqla yanaşı, bura üz tutanlarda nikbin ovqat yaratmağa xidmət edirdi.

80-ci illər Azərbaycan monumental-dekorativ rəngkarlığında yeni-yeni əsərlərin yaradılması ilə yadda qalmışdır. Oqtay Şıxəliyevin həmkarı Fəxrəddin Əliyevlə birlikdə T.Bəhramov adına Respublika Stadionunun yaxınlığında – Yüngül atletika manejində işlədiyi irihəcmli (200 kvadratmetr) "Azərbaycan folkloru" (1980) həmin illərin ən yaddaqalan monumental-dekorativ rəngkarlıq nümunəsi sayıla bilər. Qədimlərdən bəri xalqımızın formalaşan folklor nümunələrini Azərbaycan təbiəti və ecazkar ornamentlərlə əlaqələndirən müəlliflər nikbin koloritlə bayram ovqatlı səhnənin yaradılmasına nail olmuşlar.

Görkəmli fırça ustası Qorxmaz Əfəndiyevin Bakının Suraxanı rayonundakı "Atəşgah" restoranında (1980-ci illər) və indiki Bakı Slavyan Universitetində (1980-ci illər) həyata keçirdiyi monumental işlər də bədii həllinə görə müasir və yaddaqalandır. İstirahət və əyləncə mərkəzindəki relyefli "Od motivləri", təhsil ocağında isə "Dünya ədəbiyyatının korifeyləri" mövzusundakı divar rəsmlərini orijinal bədii həll ilə gerçəkləşdirən müəllif monumental sənət saxlancımızı maraqlı nümunələrlə zənginləşdirmişdir.

Həmin illərdə rəssam Əşrəf Heybətov Sumqayıtdakı Xovlu iplik fabrikində "Ellər bayramı" (1982) adlı divar rəsmi (500x1000 sm) yaratmışdı. Yaradıcılığında daha çox milli bədii ənənələrin müasir tutumda təfsirinə üstünlük verən müəllif bu əhatəli divar rəsmində də, onlarla səsləşən koloriti tətbiq etməklə, gözoxşayan səhnə təsvir etmişdir.

O illərdə böyük sənətdə ilk addımlarını atan Rövşən Məmmədovun ərsəyə gətirdiyi divar rəsmlərində də obyektlərə nikbin ruh bəxş etmək istəyi güclü olmuşdur. Onun paytaxtın Bakıxanov qəsəbəsindəki keçmiş 84 saylı Peşə texniki məktəbində ("Şərq bazarı", "Toy" – 1986) və Uşaq stomatoloji xəstəxanasında (1984) çəkdiyi divar rəsmləri ("Kosmos", "Azərbaycan nağılları") bu mənada diqqəti cəlb edir.

Rövşən Məmmədovun həmkarı Elmas Hüseynovla birlikdə yaratdığı, vaxtilə Bakıdakı "Cırtdan" mağazasının interyerini bəzəyən "Azərbaycan nağılları" (300x500 sm; 1988) divar rəsmi də məkana xoş ovqat bəxş edən əsərlərdən idi.

70-80-ci illərdə Sovet İttifaqında "Əsrin tikintisi" kimi tanınan Baykal-Amur dəmiryolunun tikintisi zamanı Azərbaycandan gələn inşaatçılar tərəfindən İrkutsk vilayətində yeni salınan Ulkan qəsəbəsinin tərtibat işlərində bizim rəssamlar da fəal iştirak etmişlər. Zöhrab Mütəllibovun Ulkan qəsəbəsindəki ticarət mərkəzinin interyerində çəkdiyi divar rəsmi (1984) maraqlı tərtibatlardandır.

Bakıda tanınmış fırça ustaları – Sirus Mirzəzadə və mərhum İsmayıl Məmmədovun yaratdıqları divar rəsmləri (1980-ci illər) sonradan məhv edilsə də, onlar Azərbaycan monumental-dekorativ rəngkarlığını zənginləşdirən nümunələr kimi yadda qalmaqdadırlar. Divar rəsmi (500 kvadratmetr) üçün XII əsr Azərbaycan və dünya ədəbiyyatının ulduzu sayılan Nizami Gəncəvinin "Xəmsə"sinin süjetlərini məna-məzmun daşıyıcısı seçən müəlliflər onu miniatür üslubunda gerçəkləşdirməklə, motivlərin yaddaqalan və cəlbedici tutum almasına nail olmuşdular.

Onların indiki Fəvvarələr meydanında – yeraltı məkanda yerləşən keçmiş "Retro" fotoatelyesinə verdikləri bədii tərtibat (1980-ci illər) da estetik tutumuna görə bənzərsiz idi. Divarlardakı eyvan elementlərini ümumi kompozisiyaya (150 kvadratmetr) qatan müəlliflər canlılığı və həyatiliyi qabarıq olan səhnələrin yaranmasına nail olmuşdular.

İsmayıl Məmmədov "Azərbaycan" kinoteatrının foyesindəki divar rəsmlərini (1988) isə tək işləmişdi. Bədii tutumunun orijinallığına görə Azərbaycan monumental-dekorativ rəngkarlığında unikal sayılan bu əsərin bizim günlərə gəlib çatmaması yalnız təəssüf doğurur. 200 kvadratmetr sahədə icra olunan və özündə kino tariximizlə bağlı olan 160 fiqur-obrazı hifz edən bu divar rəsmini qoruyub saxlamaq olardı.

Ucal Haqverdiyevin Bakıdakı müqəddəs Mixail Arxangel kilsəsində yerinə yetirdiyi divar rəsmi (1998-2003) də mövzusuna və bədii həllinə görə diqqətçəkən sənət nümunələrindəndir...

Çox təəssüf ki, müstəqillik illərində respublikada tikinti-abadlaşdırma işlərinin duyulası dərəcədə genişlənməsinə baxmayaraq, yeni tikililərdə bədii vasitələrdən nadir hallarda istifadə olunmuşdur. İnanmaq istərdik ki, bu arzuolunmaz vəziyyət yaxın gələcəkdə yaxşılığa doğru dəyişəcəkdir...

**Ziyadxan Əliyev**
**Əməkdar incəsənət xadimi, professor**

## Xatirə təqvimi — 23–25 fevral

### Azərbaycan

**23 fevral 1909** – Tanınmış ədəbiyyatşünas alim, akademik Həmid Məmmədtağı oğlu Araslı (1909 – 20.11.1983) Gəncədə anadan olub.

**23 fevral 1911** – Xalq artisti, rejissor, Azərbaycan musiqili teatrının yaradıcılarından Şəmsi Bədəl bəy oğlu Bədəlbəyli (1911 – 23.5.1987) Şuşada doğulub. Filarmoniyanın, Musiqili Komediya Teatrının bədii rəhbəri və direktoru işləyib. Azərbaycan Teatr Cəmiyyətinin (indiki Teatr Xadimləri İttifaqı) sədri olub. "O qızı tapın", "Axırıncı aşırım" və s. filmlərdə çəkilib.

**23 fevral 1928** – Akademik, coğrafiyaşünas, tarix və toponimika sahəsində əsərlərin müəllifi Budaq Əbdüləli oğlu Budaqov (1928-2012) Ermənistan SSR Zəngibasar rayonu Çobankərə kəndində doğulub.

**23 fevral 1938** – Tarix elmləri doktoru, etnoqraf Qəmərşah Cavadov (1938-2005) Quba rayonunun Aydınkənd kəndində anadan olub.

**23 fevral 1943** – Şair, tərcüməçi, publisist Səyavuş Əli oğlu Sərxanlı (1943-2005) Şəmkir rayonunda anadan olub.

**23 fevral 1952** – Əməkdar artist Əlican Süleyman oğlu Əzizov (1952 – 10.2.2021) anadan olub. Gəncə Dövlət Dram Teatrında, Nizami Poeziya teatrında aktyor kimi çalışıb, filmlərdə çəkilib.

**23 fevral 2003** – Xalq artisti, görkəmli aktyor Həsənağa Turabov (24.3.1938 – 2003) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, teatrın direktoru olub. Filmlərdə yaddaqalan obrazlar yaradıb, "Qanlı zəmi" ("Atları yəhərləyin") filminə quruluş verib.

**24 fevral 1864** – Mütəfəkkir, yazıçı-publisist, şair, rəssam Əli bəy Molla Hüseyn oğlu Hüseynzadə (1864 – 17.03.1940) Salyanda doğulub. Bakıda "Həyat" qəzetinin, "Füyuzat" jurnalının redaktoru olub. 1910-cu ildən Türkiyədə yaşayıb, İstanbul Universitetində dərs deyib. Ə.Hüseynzadənin "türkçülük, çağdaşlıq, islam" fəlsəfəsi Azərbaycanın üçrəngli bayrağının ideoloji əsasını təşkil edir

**24 fevral 1881** – Görkəmli şair, yazıçı Abdulla Şaiq (Abdulla Mustafa oğlu Talıbzadə; 1881 – 24.7.1959) anadan olub. Azərbaycan uşaq ədəbiyyatına böyük töhfələr verib. "Gülzar", "Milli qiraət kitabı" və s. dərsliklər, uşaqlar üçün pyeslər yazıb, ali məktəblərdə ədəbiyyat tarixindən dərs deyib.

**24 fevral 1922** – Teatrşünas, sənətşünaslıq namizədi Adilə Mirzə qızı İsmayılova (1922 – 24.11.1985) Bakıda anadan olub. Azərbaycan Teatr İnstitutunun (indiki Mədəniyyət və İncəsənət Universiteti) prorektoru işləyib.

**24 fevral 1933** – Tanınmış aktyor Bahadur Atabala oğlu Əliyev (1933-2002) Masallı rayonunun Sığıncaq kəndində anadan olub. "Ulduz", "Böyük dayaq" və s. filmlərdə çəkilib, filmlərin səsləndirilməsində iştirak edib.

**24 fevral 1934** – Xalq rəssamı, professor Cəmil Mir Yusif oğlu Müfidzadə (1934 – 20.12.2019) Naxçıvan MR Ordubad rayonunda anadan olub. "İçərişəhər", "Abşeron nefti", "Xınalıq", "Misir təəssüratları" və s. silsilə əsərlərin müəllifidir.

**24 fevral 1941** – Əməkdar mədəniyyət işçisi Sidqi Mustafayev (1941 – 12.4.2021) Bakının Balaxanı kəndində doğulub. "İrs" folklor ansamblının yaradıcılarından biri və uzun illər bədii rəhbəri olub.

**24 fevral 1944** – Əməkdar incəsənət xadimi, rejissor Tariyel Təyyar oğlu Vəliyev (1944 – 24.4.2012) İmişli rayonunda doğulub. Azərbaycan Televiziyasında məşhur tamaşalara ("Səni axtarıram", "Evləri köndələn yar", "Yaşıl eynəkli adam" və s.) quruluş verib.

**25 fevral 1910** – Tanınmış rəssam Rüstəm Məmmədhənifə oğlu Mustafayev (1910 – 19.7.1940) anadan olub. Azərbaycanda teatr-dekorasiya sənətinin yaradıcılarından sayılır. "Koroğlu" operasının ilk quruluşunun (1937) bədii tərtibatını verib. Bakı Türk İşçi, Akademik Dram teatrlarında çalışıb. Milli İncəsənət Muzeyi rəssamın adını daşıyır.

### Dünya

**23 fevral 1685** – Alman bəstəkarı Georq Hendel (Georg Friedrich Händel; 1685-1759) anadan olub.

**23 fevral 1878** – Polyak əsilli Rusiya rəssamı Kazimir Severinoviç Maleviç (1878-1935) Kiyevdə doğulub. Təsviri sənətdə abstraksionizmin tanınmış nümayəndələrindən biridir.

**23 fevral 1878** – Tatar yazıçı-publisisti Qayaz İshaki (1878-1954) anadan olub. Rusiya müsəlmanlarının liderlərindən olub, sovetləşmədən sonra Almaniya və Türkiyədə yaşayıb, Ankarada vəfat edib.

**23 fevral 1883** - Alman filosofu və psixoloqu, ekzistensializmin əsas simalarından biri Karl Yaspers (Karl Theodor Jaspers; 1883-1969) anadan olub.

**24 fevral 1786** – Alman yazıçısı, folklorşünas-filoloq Vilhelm Qrim (Wilhelm Karl Grimm; 1786-1859) anadan olub. Qardaşı Yakob Qrim (1785-1863) ilə birlikdə alman nağılları toplusunu tərtib edib.

**24 fevral 1906** – Sovet kinorejissoru, Rusiyanın Xalq artisti Aleksandr Rou (1906- 1973) anadan olub. Məşhur nağıl filmlərinə ("Ölməz Kaşşey", "Büllur başmaq" və s.) quruluş verib.

**25 fevral 1707** – İtalyan dramaturqu Karlo Qoldoni (Carlo Goldoni; 1707-1793) anadan olub. 200-dən çox pyes yazıb.

**25 fevral 1841** – Fransız rəssamı, qrafik və heykəltəraş, impressionizmin banilərindən biri Pyer Ogüst Renuar (Pierre-Auguste Renoir; 1841-1919) anadan olub.

**25 fevral 1871** – Ukrayna ədəbiyyatının klassiki, yazıçı, şairə Lesya Ukrainka (Larisa Petrovna Kosaç-Kvitka; 1871-1913) anadan olub.

**25 fevral 1907** – Türk yazıçısı və şairi Səbahəddin Əli (1907-1948) Ədirnə vilayətində doğulub. "Kuyucaklı Yusif", "İçimizdəki şeytan" və s. romanların müəllifidir.

**25 fevral 1943** – İngilis müğənnisi, bəstəkar, gitaraçı, "The Beatles" qrupunun üzvü Corc Harrison (George Harrison; 1943-2001) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

# Misirdə Xaqani Şirvaninin əsərlərinin əlyazmaları tapılıb

Qahirə şəhərinin qədim əlyazmalarla zəngin kitabxanalarından olan "Misir kitablar evi"ndə (Dər əl-kutub əl-Misriyyə) klassik Azərbaycan şairi Xaqani Şirvaniyə (1126-1199) məxsus əsərlərin əlyazmaları tapılıb.

Qahirə Universitetinin əməkdaşı, Misir-Azərbaycan Dostluq Cəmiyyətinin rəhbəri, tədqiqatçı alim Seymur Nəsirov tərəfindən aşkar olunan əlyazmalar şairin divanının dörd nüsxəsi, "Töhfətül-İraqeyn" ("İki İraqın töhfəsi") poemasının nüsxəsindən ibarətdir. Divanın birinci nüsxəsi 1603-cü ildə nəstəliq xətti ilə köçürülüb. Bu əlyazma 369 vərəq və 17 sətirdən ibarətdir. İkinci nüsxə qızılı çərçivəyə alınaraq nəstəliq xəttində hicri tarixi ilə 1454-cü ildə köçürülüb və onun birinci səhifəsi yoxdur. Bu əlyazma isə 322 vərəq və 21 sətirdən ibarətdir. 335 vərəq və 20 sətirdən ibarət üçüncü nüsxə də qızılı çərçivə daxilində nəstəliq xəttində 1600-cü ildə Ümməti Türbəti tərəfindən köçürülüb. 1420-ci ilə aid olan dördüncü nüsxə isə Fürsət Qərib tərəfindən köçürülüb. Lakin bu əlyazma nüsxəsində Xaqani ilə yanaşı, müxtəlif şairlərin əsərləri də yer alıb.

"Töhfətül-İraqeyn" poemasının aşkar olunan yeni əlyazmasında əsərin 1156-cı ildə, müəllifin ilk Həcc ziyarətində yazdığı qeyd edilir. Bu əlyazma 1694-cü ildə Məhəmməd Əli İzzəddin Əhməd oğlu əl-Şirazi tərəfindən köçürülüb.

# “Ekspo Dubay”da Azərbaycanın “Dostluq” xalçası təqdim edilib

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən dünya sərgisində (Expo 2020 Dubai) Azərbaycan pavilyonunda müxtəlif təqdimatlar, mədəni proqramlar təşkil edilir.



Fevralın 18-də dünya sərgisindəki Azərbaycan pavilyonunda Heydər Əliyev Fondu və “Azərxalça” ASC tərəfindən təşkil olunan tədbirdə “Dostluq” xalçasının təqdimatı olub.

Ənənəvi Azərbaycan xalçaları və yeni müasir dizayn əsasında hazırlanan “Dostluq” xalçası “Azərxalça”nın kreativ komandası ilə Əməkdar rəssam Rəşad Ələkbərovun birgə əməkdaşlığı nəticəsində ərsəyə gəlib. Xalçanın yaradılması üzrə işlər, o cümlədən dizaynın işlənməsi, çeşninin hazırlanması, xalçanın özünün toxunması və emalı 7 ay çəkib.

Xalçada Azərbaycanın və Dubay Əmirliyinin məşhur tarixi və müasir abidələri, flora və fauna elementləri əksini tapıb.

Xatırladaq ki, ölkəmiz “Ekspo Dubay” sərgisində Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə “Gələcəyin toxumları” mövzusu ilə çıxış edir. 2020-ci ildə açılması nəzərdə tutulan, lakin pandemiya səbəbindən ertələnən “Ekspo Dubay” ötən il oktyabrın 1-də fəaliyyətə başlayıb. 190 ölkənin təmsil olunduğu dünya sərgisi 2022-ci il martın 31-nə qədər davam edəcək.

# Şimali Kipr rəhbəri TÜRKSOY-un “Nizami Gəncəvi” medalı ilə təltif olunub




Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Prezidenti Ersin Tatar Türkiyəyə səfəri gedişində Ankarada Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un qərargahını ziyarət edib.

Qurumun Baş katibi Düsen Kaseinov ilə görüşdə ŞKTC və TÜRKSOY arasında əlaqələr, əməkdaşlıq perspektivləri müzakirə olunub.

Düsen Kaseinov Şimali Kiprin Türk dünyası üçün geosiyasi əhəmiyyəti ilə yanaşı, mədəniyyət və incəsənət baxımından da əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Ersin Tatar isə TÜRKSOY-un fəaliyyətinin Kipr türkləri üçün xüsusi önəmini qeyd edib: “TÜRKSOY-un bizə açdığı qapı vasitəsilə Kipr türk xalqının mədəniyyəti, incəsənəti, musiqisi, ədəbiyyatı, adət-ənənələri dünyaya tanıdılır...”.

Ersin Tatar Şimali Kipr ilə TÜRKSOY-un əməkdaşlığı çərçivəsində həyata keçirilən fəaliyyətdən bəhs edərək deyib: “Bundan sonra da Kipr türk xalqının mədəniyyət və sənət adamlarının Türk dünyasının sayılıb-seçilən şəxsiyyətləri arasında anılması bizim üçün ilham mənbəyi olacaq. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan ŞKTC xalqı üçün eyni soydan gəlir, oxşar adət-ənənə, ortaq mədəniyyətə sahibik...”.

Görüşdən sonra Şimali Kipr rəhbərinə TÜRKSOY tərəfindən böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyi münasibətilə təsis edilən “Nizami Gəncəvi” medalı təqdim olunub. Düsen Kaseinov TÜRKSOY-un ötən il nəşr etdirdiyi “Nizami Gəncəvini oxuyaq” bədii albomunu da Ersin Tatara təqdim edib.

Şimali Kipr Prezidenti TÜRKSOY-un Baş katibinə təşəkkür plaketi təqdim edib.

Ersin Tatar həyat yoldaşı Sibel Tatar ilə birlikdə TÜRKSOY-un qərargahında Şimali Kipr rəssamlarının və fotoqraflarının sərgisi, Türk dünyasına aid mədəniyyət nümunələri ilə tanış olublar. Onlara təşkilatın fəaliyyəti, müxtəlif layihələri, o cümlədən görkəmli şəxsiyyətlərin xatirəsinə təsis etdiyi medallar barədə məlumat verilib.

**Mehparə Sultanova**
**Ankara**

# Tutanhamonun xəncəri

## Tədqiqatın nəticələri açıqlanıb

Yaponiyanın Çiba Texnoloji Universitetinin alimləri Misir fironu Tutanhamonun (eramızdan əvvəl XIV əsr) sərdabəsindən tapılmış xəncər barədə tədqiqatlarının nəticələrini ictimaiyyətə təqdim ediblər.



NHK telekanalının məlumatına görə, xəncər, çox güman ki, başqa ölkədə hazırlanıb. Bu, artefaktın mənşəyi və istehsal üsulunu öyrənmək üçün aparılan kimyəvi analizdən sonra məlum olub.

Bildirilir ki, xəncərin dəstəyinin hazırlanması üçün istifadə edilən yapışqan indiki Türkiyə ərazisində yerləşmiş Mitanni krallığında istifadə edilən yapışqanla oxşarlıq təşkil edir.

Tədqiqatçıların rəyinə görə, qədim Misir əlyazmalarında xəncərin Tutanhamonun babasına hədiyyə olaraq verildiyi qeyd olunur.

Xəncəri 2016-cı ildə tədqiq edən İtaliya alimləri onun meteorit dəmirindən düzəldildiyini bildiriblər. Yapon tədqiqatçılar da kimyəvi analizin nəticəsinə görə xəncərin meteoritə xas nadir elementlərdən hazırlandığını təsdiqləyiblər. Analiz xəncərin aşağı temperaturda, tam əriməmiş dəmirdən döyüldüyünü təsdiq edir.

# TİKA ilə birgə turizm treninqi layihəsi

Dövlət Turizm Agentliyi (DTA) ilə Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) əməkdaşlığı çərçivəsində Azərbaycanın müxtəlif regionlarından seçilən turizm işçiləri Türkiyənin Antalya şəhərində təlim proqramına qatılacaqlar. Fevralın 21-də treninq proqramının təqdimat tədbiri keçirilib.

Tədbirdə çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı iki ölkə arasında turizm sahəsində bir çox uğurlu işlərin həyata keçirildiyini vurğulayaraq yeni layihənin də bu əlaqələrin genişlənməsi və təcrübə mübadiləsinə töhfə verəcəyini deyib. O, DTA ilə birlikdə gələcəkdə bu formatlı proqramların təşkilində maraqlı olduqlarını bildirib.

Dövlət Turizm Agentliyi Aparatının rəhbəri Kənan Qasımov bu cür layihələrin iki ölkənin turizm təhsili sahəsində yeni təcrübələrin əldə olunmasına, peşəkarlığın artmasına zəmin yaradacağını, Türkiyənin turizm sahəsində malik olduğu zəngin təcrübədən ölkəmizin də faydalanmaq istədiyini deyib.

Qeyd edək ki, treninq üçün iştirakçılar Quba-Xaçmaz, Şəki-Zaqatala, Gəncə-Daşkəsən, Lənkəran-Astara və Qarabağ iqtisadi rayonları üzrə hotel işçiləri, eləcə də turizm peşə təlimi sahəsində fəaliyyət göstərən qurumlarda çalışan təlimçi və mütəxəssislər arasından seçilib.

İki mərhələdən ibarət layihənin “Turizm təlimində müasir yanaşmalar” nəzəri proqramı fevralın 21-dən 25-dək Bakıda, “Hotel və səyahət xidmətləri sahəsi – yemək və içki sahəsində təlimçilər üçün təlim” praktiki proqramı isə martın 14-dən 25-dək Antalyada keçiriləcək. İlk mərhələdə 35 iştirakçıdan təlimi uğurla başa vuran 14 nəfər layihənin ikinci mərhələsinə qatılacaq.

# Aktyor kimi uğur qazana bilməsə də...

Hollivud aktyoru Zak Averi (Zach Avery) dələduzluğa görə 20 il müddətinə azadlıqdan məhrum edilib.

Amerikalı aktyor məhkəmədə günahını etiraf edib. O, “Netflix” və “HBO” kimi şəbəkələrdən bəzi filmlərin hüquqlarını satıb, piramida sxemi yaradıb və investorlara 690 milyon dollar zərər vurub.

Zak Averi həbs cəzası ilə yanaşı, 230 milyon dollardan çox təzminat da ödəməlidir.

Zak Averi aşağı büdcəli elmi fantastika və qorxu filmlərində çəkilib. Onun ən böyük uğuru “Qəzəb” filmində Bred Pittin köməkçisi qismində işləmək olub.

# “Aslan. Hürkuş – itirilmiş almaz” Avropada yayımda

## Türkiyə kinoteatrlarında 1 milyondan çox tamaşaçı toplayıb

TRT-nin yeni animasiya layihəsi olan ”Aslan. Hürkuş – itirilmiş almaz” filminin Avropada nümayişi başlanıb.




“Akko Organizasyon” şirkəti ilə birgə ərsəyə gətirilən (ssenarist – Özgür Balamir, rejissorlar – Haydar Sinan Güngör, Hakan Bol) 92 dəqiqə xronometrajı olan animasiya filminin 2020-ci ildə ekranlara çıxması nəzərdə tutulsa da, pandemiya səbəbindən iki il ləngiyib.

Yanvarın 7-dən Türkiyənin kinoteatrlarında təqdim edilən və bir ay içində 1 milyondan çox tamaşaçı toplayan animasiya filmi Almaniyanın 30 şəhərində 32 kinoteatrda yayıma çıxarılıb. Film fevralın 18-də Avstriyanın 3 şəhərindəki 4 kinoteatrda da göstəriləcək.

Fevralın 24-də Danimarkada təqdim olunacaq filmin Belçika, Hollandiya, Lüksemburq və İngiltərədə də nümayişi planlaşdırılır.

Animasiya filmində pilot ulu babasından miras qalan təyyarəni – “Hürkuş”u işə salmaq üçün mühəndis olmağı hədəfləyən Aslanın başına gələn macəradan bəhs edilir.

# Dünya Səhiyyə Təşkilatı xəbərdarlıq edir

## Pandemiya hələ bitməyib



Dünya Səhiyyə Təşkilatı (ÜST) bir sıra ölkələrdə tələskənlik göstərilərək koronavirus pandemiyası ilə bağlı tam yumşalmaların və hətta pandemiyanın bitdiyinin elan edilməsinə etirazını bildirib.

Təşkilatın rəhbəri Tedros Qebreyesus xəbərdarlıq edib ki, dünyanın bir sıra ölkələrində yüksək peyvənd kvotası və “omikron“ variantına yoluxmaların nisbətən rahat keçməsi ictimai fikirdə sanki pandemiyanın başa çatması kimi təhlükəli anlayışa yol açır.

Baş direktor bildirib ki, bu yanaşma düzgün deyil, çünki xəstəlikdən hər həftə dünyada 70 min insan həyatını itirir. Afrika əhalisinin 80 faizdən çoxuna peyvəndin ilk dozası hələ də vurulmayıb. Bir çox ölkələrin səhiyyə sistemləri yüksək yoluxmalara görə xəstəxanaların yüklənməsi ilə bağlı əziyyət çəkir. Hazırkı vəziyyət daha yoluxucu və təhlükəli variantların meydana gəlməsi üçün münbit zəmin ola bilər.

DST rəhbəri qeyd edib ki, pandemiyaya qlobal səhiyyə fövqəladə vəziyyəti kimi son qoymaq mümkündür. Bunun üçün müvafiq tibbi-texniki imkanlar, bilik və təcrübə mövcuddur. O, dünyanın zəngin ölkələrini inkişaf etməkdə olan ölkələri peyvənd, testlər, dərman preparatları və maskalarla təmin etmək üçün 16 milyard ABŞ dolları həcmində vəsaitin toplanmasına dəstək göstərməyə çağırıb. T.Qebreyesusun sözlərinə görə, pandemiyadan dolayı daha bir ili ağır iqtisadi nəticələrlə keçirmək əvəzinə 16 milyard dollarlıq vəsaitin toplanması daha məqsədəuyğun yol sayılmalıdır.

Qeyd edək ki, COVİD-19 infeksiyasının dünyada yayılması 2020-ci ilin yanvarında başlayıb. 2020-ci il martın 11-də Dünya Səhiyyə Təşkilatı rəsmən pandemiya vəziyyəti elan edib.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 192 il əvvəl...

**24 fevral 1830-cu ildə** Azərbaycanın Car-Balakən bölgəsindəki üsyanı yatırmaq üçün Rusiya ordusunun Qafqaz korpusunun hissələri əraziyə yeridilib. General İvan Paskeviçin rəhbərlik etdiyi qoşunlar üsyanı yatırmağa müvəffəq olsa da, bir neçə aydan sonra bölgədə yeni üsyan başlandı.

### 191 il əvvəl...

**25 fevral 1831-ci ildə** Şərqi Avropada jandarm rolunu oynayan çar Rusiyasının ordusu Polşa üsyanını qan içində boğub. XVIII əsrin sonunda Polşa dövləti (Reç Pospolita) Rusiya və Prussiya tərəfindən bölüşdürülmüşdü. Üsyanın yatırılmasından sonra I Nikolay Polşanın özünüidarə statusunun məhdudlaşdırılması barədə fərman verib. Polşa formal muxtariyyətlə Rusiya imperiyasının bir hissəsi elan edilib.

### 174 il əvvəl...



**24 fevral 1848-ci ildə** Fransada növbəti burjua inqilabı monarxiyanın yıxılması ilə nəticələnib. Kral Lui-Filipp taxtdan salınıb. İkinci Fransa Respublikasının yarandığı elan edilib.

### 160 il əvvəl...

**25 fevral 1862-ci ildə** ilk kağız dollar (1 dollarlıq əsginası) dövriyyəyə buraxılıb. O vaxtadək dollar ancaq metal (sikkə) şəklində idi.

### 104 il əvvəl...

**23 fevral 1918-ci ildə** Tiflisdə Zaqafqaziya Seyminin ilk iclası keçirilib. Seymdəki üç əsas partiya – gürcü sosial-demokratlar (menşeviklər) 32, “Müsavat” partiyası 30, ermənilərin “Daşnaksütyun” partiyası 27 deputatla təmsil olunmuşdu. Seymdə gürcü və ermənilərin bir neçə kiçik partiyası, həmçinin azərbaycanlı (müsəlman) deputatların “İttihad”, “Hümmət”, müsəlman sosialistlər qrupları (cəmi 14 nəfər) yer almışdı. Azərbaycanlı deputat fraksiyasına (44 nəfər) Məhəmməd Əmin Rəsulzadə başçılıq edirdi.

### 101 il əvvəl...

**25 fevral 1921-ci ildə** Cənubi Qafqaza yürüşünü davam etdirən bolşevik Rusiyasının ordu hissələri Azərbaycan və Ermənistandan sonra Gürcüstanda da sovet hakimiyyətini elan edib. 1918-1921-ci illərdə fəaliyyət göstərmiş Gürcüstan Respublikasının mövcudluğuna son qoyulub.

### 78 il əvvəl...



**23 fevral 1944-cü ildə** Stalinin əmri ilə çeçen və inquşların Orta Asiyaya deportasiyası başlanıb. Rusiya Federasiyası tərkibində Çeçen-İnquş Muxtar Respublikası ləğv edilib. Sovet rəhbərliyi deportasiyanı çeçen və inquşların guya faşist Almaniyasına rəğbəti ilə əsaslandırmışdı. Ümumilikdə 500 minə yaxın insan köçürülmüşdü. 1956-cı ildə çeçen və inquşlara reabilitasiya verildi, bir il sonra RF tərkibində Çeçen-İnquş Muxtar Respublikası bərpa edildi. 1992-ci ildə iki ayrı muxtariyyətə bölündü.

### 36 il əvvəl...

**25 fevral 1986-cı ildə** Sov.İKP-nin sonuncu, 27-ci qurultayı işə başlayıb. Baş katib Mixail Qorbaçov siyasi məruzəsində “sürətləndirmə, yenidənqurma və aşkarlıq” şüarını irəli sürüb.

### 28 il əvvəl...

**24 fevral 1994-cü ildə** Milli Məclis “Xocalı soyqırımı günü haqqında” qərar qəbul edib. Qərarda hər il fevralın 26-nın Xocalı soyqırımı günü kimi qeyd edilməsi, bu barədə beynəlxalq təşkilatlara məlumat verilməsi əksini tapmışdı.

**Hazırladı: V.Orxan**

Üzeyir Hacıbəylinin Ev-Muzeyinin kollektivi Muzey Mərkəzinin direktoru Liana Vəzirovaya anası

**Svetlana Anatolyevna Abbakumovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Lənkəran Dövlət Dram Teatrının kollektivi Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsi Teatr sektorunun əməkdaşı Günay Hümbətovaya

**atası Rauf Bayramovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 436
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641